DİQQƏT!

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 175 (6139) 6 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## “Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!”

*Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib*

Bax 2



## Mehriban Əliyeva: “Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq”

Bax 8



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə...***

## Prezidentin köməkçisi: “Rusiya Baş Nazirinin İrəvana səfər etdiyi təsdiqlənərsə, bu, bizdə təəccüb doğuracaq”

Bax 8



***Rusiyanın Baş Naziri Mixail Mişustinin İrəvana gözlənilməz səfər etməsi barədə məlumat yayılıb. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə bu məlumatları APA-ya şərh edib. AZƏRTACPrezidentin köməkçisinin müsahibəni təqdim edir...***

## XİN: Ermənistanın Azərbaycan şəhərlərinə raket hücumları münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdür

Bax 12



***Azərbaycan Respublikasına qarşı yeni təcavüzü çərçivəsində Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, habelə Ermənistanın müvafiq beynəlxalq öhdəliklərini pozaraq Azərbaycanın mülki əhalisini və infrastrukturunu qəsdən hədəfə alır...***

## Putin Nikol Paşinyanı rəzil etdi!



***“Rossiya-1” telekanalı Prezident Vladimir Putinin Rusiyanın hökumət üzvləri ilə keçirdiyi iclas zamanı Ermənistan baş naziri Nikol Paşinyanın Kremlə aramsız zənglərini əks etdirən kadrlar yayıb. AZƏRTAC xəbər verir ki, “Moskva, Kreml, Putin” verilişində Prezident Vladimir Putinin iclasda iştirakı zamanı Paşinyanın ona dəfələrlə zəng vurduğu əks olunur...***

Bax 9

## Azərbaycanın Baş prokuroru: Ermənistanın kriminal hərbi-siyasi rejimi müharibə qanunlarını pozur



***Dağlıq Qarabağdakı qondarma rejimin “rəhbəri” Araik Arutunyan və digərlərinin cəzalandırılması üçün lazımi addımlar həyata keçirilir. Düşmən mülki şəxsləri hədəfə almaqla döyüş meydanındakı uğursuzluqlarına don geyindirmək istəyir. Onların məqsədi Azərbaycanın dinc əhalisini qorxutmaqdır. Lakin sizi əmin edirəm ki, bunların heç biri...***

Bax 9

## Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti Ermənistana aid mühüm sənədlər yayıb



Bax 12

## Qorxun, el qınağı yaman olur...



Bax 14

## Beynəlxalq təşkilatlar və dünya dövlətləri erməni vandalizminə hələ də səssiz qalır!



Bax 10

# "Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!"

## *Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

***-Cənab Prezident və Ali Baş Komandan İlham Əliyev, "TRT Haber"ə xoş gəldiniz. Zaman ayırdığınız üçün təşəkkür edirəm. İşğal altındakı torpaqlarınızdan bu günədək nə qədəri geri alınıb. Hərəkat bu anda hansı mərhələdədir və planladığınız çərçivədə gedirmi?***

-Bəli, hər şey plan üzrə gedir. Bu günə qədər qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Azərbaycan Ordusu uğurla irəliyə gedir. Bir çox yaşayış məntəqələri, bir şəhər, bir neçə kənd işğaldan azad edildi. Hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir.

Bildiyiniz kimi, dünən Cəbrayıl şəhəri işğaldan azad edildi və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edildi. Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur.

***-Atəşkəs çağırışlarına cavab verərkən heç bir ölkə liderinə zəng etmədiyinizi, sadəcə, danışmaq istəyənlərlə vəziyyəti dəyərləndirdiyinizi bildirdiniz. Ermənistanın baş naziri Paşinyanın isə adəti üzrə yalvardığını, bir çox dövlət başçısına zəng etdiyini vurğuladınız. Keçmiş təcrübələriniz əsasında bu dəfə başqa ölkələrin atəşkəs çağırışlarının nəticə verəcəyini düşünürsünüzmü?***

-Atəşkəs müəyyən şərtlərlə təmin edilməlidir. Çünki bu günə qədər bizə ünvanlanan çağırışlar, sadəcə bundan ibarətdir ki, atəşkəsi təmin edin, müharibəyə ara verin, ondan sonra müzakirələr davam etsin. Hansı müzakirələr davam edəcək, müzakirələr nəyin əsasında davam edəcək, bunlar bizə deyilmir. Biz bu müzakirələrdə artıq 30 ilə yaxındır ki, iştirak edirik və ümidlərlə iştirak edirdik. Əgər ümidlərimiz olmasaydı, təbii ki, bu müzakirələrdə iştirak etməzdik. Hər zaman müzakirələr mövcud olan prinsiplər əsasında gedirdi. Bu prinsiplərin arasında Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi vardır. İşğal altında olan bölgələrin mərhələli şəkildə azad edilməsi, bizə qaytarılması, ondan sonra da sülhün təmin olunması məsələsi müzakirə mövzusu idi. Amma bugünkü Ermənistan bütün əvvəldən, bəri başdan əldə edilmiş prinsipləri pozaraq bizə qarşı yeni hücum təşkil etdi. Təbii ki, biz əks-hücum əməliyyatına keçib öz torpaqlarımızı Azərbaycan əsgərinin gücü ilə azad edirik. Ona görə, sadəcə, atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz. Bizim tələblərimiz var. Mən bunu artıq rəsmən bəyan etmişəm. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı Ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var. Biz ara versək, qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq. Onsuz da onların çıxışlarında göstərilir ki, Ermənistanın xaricində yaşayan erməniləri də onlar bu müharibəyə cəlb edirlər. Beləliklə, bu müharibəni regional müstəvidən çıxarıb qlobal müharibəyə çevirmək istəyirlər. Ona görə bizim atəşkəslə bağlı sözümüz birdir. Biz buna hazırıq. Amma müəyyən şərtlər var ki, onları da mən açıqlamışam.



> ***"Bizim bütün türk qardaşlarımıza öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istəyirəm, başda əziz qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaq şərtilə"***

***-Açıqlamısınız. Zəmanət verilirsə dediniz, hansı zəmanəti nəzərdə tutursunuz?***

- Birinci zəmanət. Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq. Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar.

***-İndi dediyiniz 30 il ərzində bu günə qədər bir çox söz verildi. Bundan sonra veriləcək sözə necə güvənəcəksiniz?***

-Elə onun üçün mən söyləyirəm ki, sözdən başqa, bizə konkret tarix verilməlidir. Əgər o tarixdə, - bilmirəm veriləcək, verilməyəcək, - veriləcək tarixdə Ermənistan silahlı qüvvələri bəlli olan bölgələrdən çıxmazsa, o zaman biz də atəşkəsə riayət etməyəcəyik.

***-Qarşıdurmalar daha böyük müharibəyə, böyük regional böhrana yol aça bilərmi? Narahatlığınız varmı?***

-Bunu onsuz da Ermənistan istəyir. Onların çirkin əməlləri buna hesablanıb. Biz hesab edirik ki, buna yol verməк olmaz. Bu müharibə Azərbaycanla Ermənistan arasında olan müharibədir. Bu müharibəni biz başlamamışıq. Biz bu müharibənin səbəbkarı deyilik. Biz, sadəcə olaraq, özümüzü müdafiə edirik və öz torpaqlarımızı geri istəyirik. Bizim Ermənistan torpaqlarında gözümüz yoxdur. İyul ayında Ermənistan-Azərbaycan sərhədində ermənilər tərəfindən başlanan qarşıdurmalar nəticəsində Azərbaycan Ordusu Ermənistan torpağına keçmədi, halbuki ora keçə bilərdik. Onlara çox güclü zərbələr endirdik və onlar da geri çəkildi. Bizim qarşımızda heç bir maneə, heç bir əngəl yox idi. Biz onu etmədik. Çünki mən söylədim ki, bizim Ermənistan Respublikasının torpaqlarında hər hansı bir hərbi hədəfimiz yoxdur. Ermənistan isə bu gün Azərbaycana Ermənistan ərazisindən hücum edir. Bax, dünən Gəncəyə zərbələr Ermənistan ərazisindən vuruldu, Mingəçevirə zərbələr vuruldu. Bizim orada böyük stansiyamız var. Mərmilərdən biri stansiyanın yanına düşdü. Doğrudur, onların mərmiləri elə mərmilərdir ki, - siz mühümmat deyirsiniz mərmilərə, - onların bəziləri partlamadı. Bəzilərini isə bizim hava hücumundan müdafiə qurğularımız havada məhv etdi. Onlar bizi bu təxribata çəkirlər ki, biz də Ermənistana hücum edək, Ermənistana zərbələr endirək. Ondan sonra da çıxıb bütün dünyaya desinlər ki, Azərbaycan bizə hücum edir, gəlin Ermənistanı xilas edin, yəni Ermənistan canını qurtarır.

***-Ermənistanın beynəlxalq hüquqla çərçivələnmiş sərhədlərində bu hücumlar davam edərsə, vaxt gələrsə, yenə bugünkü mövqeyinizi qoruyacaqsınız, yoxsa..?***

-Bunu demək hələ tezdir. Biz qarşıdurmaların gedişinə baxacağıq. Hər halda, bizə vurulan hər bir zərbənin mənbəyi bizim üçün qanuni hədəfdir, legitim hədəfdir. Biz bu hədəfləri vurmağa məcbur olacağıq. Bu gün Azərbaycan Ordusu yalnız hərbi hədəfləri vurur. Bu, videogörüntülərdə artıq hər kəs üçün aydındır, hər kəs bunu görə bilir. Biz yalnız Ermənistanın işğalçı ordusuna qarşı döyüşürük. Mülki əhaliyə qarşı heç vaxt döyüşməmişik. Bu gün də etmirik və etməyəcəyik.

Ardı Səh. 3

# "Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!"

## *Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib*

Əvvəli Səh. 2

***- Qaşaltı Qaraqoyunluda gördüm, ikisi uşaq olmaqla, beş Azərbaycan vətəndaşı qətlə yetirildi. Azərbaycan Ordusunun 27 sentyabr erməni hücumlarına cavab verməsi ilə başlayan hərəkatın son hədəfi artıq bəllidir: Dağlıq Qarabağın Ermənistanın işğalından qəti şəkildə azad edilməsi, təmizlənməsi, boşaldılması. Siz ilk gündən etibarən dediniz ki, bundan sonra döyüşlər ancaq Azərbaycanın işğal altındakı torpaqlarından Ermənistanın qeyd-şərtsiz çıxması ilə dayandırılacaq. Hələ də eyni mövqedəsiniz, düzgünmü anlayıram?***

-Bəli, mənim mövqeyimdə hər hansı bir dəyişiklik yoxdur. Biz bu məsələni tarixi ədalət əsasında həll etməliyik. Tarixi ədalət onu deyir ki, Qarabağ qədim Azərbaycan torpağıdır və bütün tarixi sənədlər, bütün tarixi abidələrimiz bunu göstərir. Eyni zamanda, biz həmişə müzakirə masasında çox müsbət davranış nümayiş etdirmişdik və müzakirə masasında olan təkliflər də bu məsələnin həllini mümkün edir. Orada göstərilir ki, mərhələli həll olmalıdır. İlk mərhələdə ermənilər beş bölgədən çıxır, sonrakı mərhələdə daha iki bölgədən çıxır, ondan sonra vaxtilə Dağlıq Qarabağın ərazisindən qovulmuş azərbaycanlılar Dağlıq Qarabağa qayıdır, o cümlədən Şuşaya qayıdır, iki toplum çərçivəsində artıq həyat bərpa edilir, Ermənistan-Azərbaycan arasındakı sərhəd açılır, ticarət başlanır, ondan sonra insanlar bir-biri ilə təmasa girirlər və beləliklə, sülh gələcək. Yəni bu, bizim mövqeyimizdir və bu, beynəlxalq vasitəçilərin, həmsədrlərin də münasibətidir. Ermənistan bunu qəbul etmir. Bundan əlavə Ermənistanın müdafiə naziri bir neçə ay öncə demişdir ki, biz yeni torpaqlar uğrunda yeni müharibəyə başlamalıyıq.

***-Qısa adı ATƏT olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun 3 həmsədr ölkəsi var - Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa. Sizə atəşkəs çağırışı etdilər. Cavabınız dəyişdimi? Şərtiniz yerinə yetirilmədiyi təqdirdə, yəni işğal altındakı torpaqlardan ermənilərin çəkilmədikləri müddətdə hər hansı atəşkəs ehtimalı varmı?***

-Bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Mən bunu sizə bu gün bir daha dedim. Hətta biz ona da hazırıq ki, əgər bizə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Amma onu da bilməliyik ki, atəşkəsi bərpa etmək o qədər də asan məsələ deyil. Çünki atəşkəs birtərəfli bərpa edilmir və bu anda çox ciddi şiddətli döyüşlər gedir. Hər iki tərəf yerlərdə olan əsgər və zabitlərə təlimat verməlidir. Biri buna əməl edəcək, o biri əməl etməyə bilər. Yəni o, çox çətin bir prosesdir. Ancaq əgər o çıxma tarixi bizə verilərsə təbii ki, biz bu təlimatı verəcəyik. O zaman Minsk qrupunun həmsədrləri və digər ölkələr, mümkün olan ölkələr buna qoşularsa, atəşkəs bərpa oluna və beləliklə, bu döyüşlərə son qoyula bilər.

***-Mümkün olan ölkələr deyərkən nəyi nəzərdə tutursunuz?***

- Türkiyəni. Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır və mən fürsətdən istifadə edərək, bizim bütün türk qardaşlarımıza öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istəyirəm, başda əziz qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaq şərtilə. Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir. Bu, təkcə öz qardaşlarına verilən dəstək deyil. Odur ki, biz - bütün Azərbaycan xalqı buna görə dərin təşəkkür hissi ilə yaşayırıq. Eyni zamanda, bu döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibəti çox önəmlidir. Çünki Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir və bu, bir çox başqa aktorlara da xəbərdarlıq oldu. Ona görə bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Məhz, bizim fikrimiz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər.

***-Cənab Prezident, Minsk qrupunun həmsədrləri deyərkən Fransanı ayrı bir yerə qoyursunuz.***

- Fransa özünü ayrı yerə qoyur, mən qoymuram. Bütün prosesdə biz həmsədrlərə eyni gözlə baxmışıq və mən dəfələrlə rəsmi çıxışlarımda demişdim ki, hər bir ölkə ilə Azərbaycanın ayrı münasibətləri var, təbii ki, bu münasibətlərin səviyyəsi fərqlidir. Amma, eyni zamanda, bu məsələdə biz bu ölkələri bir-birindən ayırmırıq və bu ölkələr deməliyəm ki, bütün proses boyunca son olaylara qədər vahid bir mövqedən çıxış edirdi, bitərəf idi, yəni tərəf tutmurdu. Halbuki biz bilirdik ki, bəlkə də bunların ürəyində tərəftutma var. Bu da təbiidir. Amma rəsmi addımlarda və bizimlə təmaslarda heç zaman bunu göstərmirdilər.

***- Fransa Prezidenti Makronu üzr istəməyə dəvət etdiniz.***

- Bəli, təbii, çünki bizə qarşı ittiham irəli sürdü. Olmayan şeyləri üstümüzə atdı. Bu, bizim ölkəmiz üçün qəbuledilməzdir.

***-Hansı ittihamları?***

- Deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib. Onun açıqlamasında bu, var. Ondan sonra bir açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməırik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni, həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu? Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməırik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik.

***-Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı tarixi qərarları var.***

-Təbii, özü səs verməşdi. Özü 1993-cü ildə səs verməşdi, yəni öz səsinə hörmət etsin.

***- İcazənizlə, daha bir neçə sualım olacaq. İstər cəbhə xəttinə uzanan quru yolları üzərində, istər olduğumuz şəhər və kəndlərə baxdığımızda, istərsə də paytaxt Bakıda dünən axşam gördük ki, Azərbaycan bayrağının yanında Türkiyənin bayrağı dalğalanır. Evlərdə, iş yerlərində, avtomobillərdə, hər yerdə. Türkiyədə də bənzər bir mənzərə var, bəlkə xəbərlərdə görmüsünüz. Cəbrayıldakı zəfərdən sonra Türkiyənin dörd bir yanında küçələrə axışıb qardaş Azərbaycana böyük dəstək nümayişləri var idi.***

-Doğrudur. Biz qürur duyuruq. Bu, təbiidir. Bizim qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir. Mən dəfələrlə bu mövzu ilə bağlı öz sözlərimi demişdim. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təşkil olunan birgə mətbuat konfranslarında dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyildi. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır. Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq. Türkiyə bayraqları onsuz da Azərbaycanda hər yerdə var, Azərbaycan bayraqları da Türkiyədə. Biz bir-birimizi bir-birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olmuşdur, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu - kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Bütün mövzularda, bütün kürsülərdə biz bir-birimizi dəstəkləyirik və bizim birliyimiz əbədi olmalıdır.

***- Bu arada, Pakistanı da xatırlatmaq istəyirəm. Onların da bayraqlarını hər bir yerdə görürəm. Rusiya harada durur Sizcə? Çünki Rusiya xüsusi bir önəmə sahibdir.***

- Mən fürsətdən istifadə edərək, bizim digər dost-qardaş ölkələrə də təşəkkürümü bildirmək istəyirəm. Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə təbii ki, onların həmrəyliyi, dəstəyi bizim üçün çox önəmlidir və bizə mənəvi güc verir.

Rusiya bizim qonşumuzdur. Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir və hər hansı bir tərəfi dəstəkləmək müzakirə mövzusu deyil. Halbuki Ermənistan buna çox ümid edirdi. Ermənistanın bu toqquşmanı bölgənin xaricinə çıxarmaq məqsədi də Rusiyanı buraya cəlb etməkdir. Ermənistan Azərbaycana hazırda Ermənistan ərazisindən niyə hücum edir? Məhz ona görə ki, biz də hücum edək, o da Rusiya ilə, başqa ölkələrlə birgə iştirak etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinin baş katibliyinə müraciət etsin və desin ki, Azərbaycan bizə hücum edir, gəlin bizə yardım edin. İyul ayında, niyə onlar bu təxribatı Ermənistan-Azərbaycan sərhədində törətdilər? Tovuz Qarabağ bölgəsindən uzaq məsafədə yerləşir. Orada onların hansı hədəfləri var idi - bir hədəfi ki, biz hücum edək, biz dövlət sərhədini keçək, - mən dedim bizdə belə bir fürsət var idi, - və ondan sonra müraciət etsin o təşkilata ki, gəlin bizimlə bərabər Azərbaycana qarşı vuruşun. Yəni, Rusiyanı bu işlərə cəlb etmək istəyir və bu, növbəti təxribatdır, mən əminəm ki, buna müvəffəq olmayacaq.

***- İyul ayında Ermənistan Tovuza hücum edərkən daha başqa bir şeyi hədəfləmiş ola bilərdimi? Misal üçün, hədəfdə enerji təhlükəsizliyini zəiflətmək ola bilərdimi? TANAP, Bakı-Tbilisi-Ceyhan xətləri ağlıma gəlir.***

- Bəli, təbii ki, o da ola bilərdi. Bir neçə hədəfi var idi. Çünki ondan öncəki dönəmdə bəyan etmişdilər ki, əgər Dağlıq Qarabağ ətrafında döyüşlər olarsa, onlar bizim strateji infrastruktur layihələrimizi vurmağa hazırdırlar - Səngəçal Neft-Qaz Terminalı və boru xətti. Ona görə Tovuz bölgəsində hücumun bir məqsədi də o idi ki, onlar test edirdilər, haraya qədər girə bilərlər. Çünki orada onların əsas məqsədi dövlət sərhədini keçmək, Azərbaycan torpaqlarını işğal etmək və həmin TANAP boru xəttinə yaxınlaşmaq, yaxud da ki, onu nəzarətə almaq idi. Ancaq bu, alınmayanda geri çəkildilər, bütün vasitəçilərdən imdad dilədilər. Mən də söylədim ki, Ermənistan torpaqlarında bizim hədəfimiz yoxdur. Ona görə dörd gündən sonra hücum dayandı.

**"Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur"**

Ardı Səh. 4

# “Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!”

## *Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib*

**Əvvəli Səh. 3**

Başqa bir səbəb ola bilər. Mən bununla bağlı öz fikirlərimi bildirmişdim. Hazırda Ermənistanda çox dərin böhran yaşanır, həm siyasi, həm iqtisadi. Bu böhran nəticəsində Ermənistanda siyasi əlaqələr pozulub. Çünki indi Paşinyan hakimiyyəti əsas müxalifət liderlərini həbsə atdırır. Misal üçün, əsas müxalifət partiyasının sədrini deputat toxunulmazlığından məhrum etdi, həbsə atdı. İki keçmiş prezidentə qarşı cinayət işi açıldı. Söz azadlığı, sərbəst toplaşma azadlığı yoxdur. Konstitusiya Məhkəməsini zor gücü ilə məhv etdi, öz adamlarını gətirdi. Ona görə Ermənistanın daxilində artıq çox ciddi bir narahatlıq var. Paşinyan ictimai fikri yayındırmaq üçün bu hücumu təşkil edir. Rusiyanı cəlb etmək, strateji infrastrukturumuzu məhv etmək, daxildəki vəziyyəti sabitləşdirmək və Azərbaycan torpaqlarının bir qismini işğal etmək və ondan sonra müzakirələrdə öz mövqeyini gücləndirmək.

***-Hörmətli Prezident, icazənizlə son iki sualımı vermək istərdim. İndi bu cür münaqişə, savaş və böhranların olduğu bölgələrdə qara təbliğat da meydana çıxır. Ermənistan hücumlarını başladığı gündən etibarən bu mövzuda - qara təbliğat mövzusunda nə kimi müşahidələriniz oldu. Dəyərləndirmənizi xahiş edə bilərəmmi?***

-Bilirsiniz, Azərbaycana qarşı qara təbliğat bir dəqiqə, bir saniyə dayanmır. Bunun bir neçə səbəbi var. Birincisi, erməni lobbisi bizə qarşı daim hərəkətdədir. Azərbaycanı qaralamaq, bizim üstümüzə ləkə atmaq, bizim imicimizi korlamaq səyləri dayanmır. Dünyanın bir çox ölkələrində erməni lobbiləri var. Bu, heç kəs üçün sirr deyil. Müntəzəm olaraq mütəmadi qaydada bizə hücum edirlər. Olmazın yalanlarını, iftiralarını uydururlar. Bu münaqişə dönəmində təbii ki, erməni lobbisi bütün gücünü səfərbər edib və bizə qarşı yeni qara təbliğat səylərini ortaya qoyubdur. Ancaq bizə yapışmır. Mən demişəm, dəlil verin, sübut verin, fakt verin. O cümlədən Fransa prezidentinə, - o mənə telefonla iki dəfə zəng etmişdi, - dedim ki, fakt verin. Sentyabrın 27-dən artıq 8 gün keçir.

***- Makron nə deyir?***

- Heç nə demir, deyir ki, bizdə kəşfiyyat məlumatı var. Dedim verin bizə, haradadır bu kəşfiyyat məlumatı? Yoxdur bu, ola da bilməz.

***- Sizin kəşfiyyatınız Ermənistanla bağlı nə deyir?***

- Hansı mövzuda?

***- Əlinizdəki kəşfiyyat materiallarında, Ermənistandakı xarici güclərdən bəhs edilir. Livandan, Suriyadan gələn...***

-Bizdə təbii ki, belə məlumatlar var və bu məlumatlar əsaslıdır, artıq onlar dəqiqləşdirilir. Biz çox məsuliyyətli dövlət olduğumuz üçün rəsmi bəyanatlarda buna toxunmuruq. Təbii ki, mediada, ondan sonra siyasətçilər, politoloqlar arasında belə məlumatlar dolaşır. Amma biz bunu gərək təsdiqləyək. Bizdə əvvəldən kəşfiyyat məlumatı var idi ki, Dağlıq Qarabağa terrorçular gətirilib yetişdirilir, onlara təlim keçilir.

***-Hansı terror qruplaşmaları?***

-PKK terror qruplaşmaları. Bu barədə çoxlu məlumatlar var idi. Hələ bir neçə il bundan öncə biz bu məsələni beynəlxalq platformalarda qaldırırdıq. Onlar təlim alır və istisna edilmir ki, bu gün də var. Sadəcə olaraq, mənim əlimdə yüzdə yüz fakt olandan sonra bunu deyəcəyəm. Bu gün ehtimal çox böyükdür. Amma Ermənistandan və bəzi başqa ölkələrdən fərqli olaraq biz 100 faiz təsdiqini tapmamış məlumatı ortaya atmırıq.

Bir misalı da gətirə bilərəm, bizə qarşı iddia qaldırdı ki, Türkiyənin F-16 təyyarəsi Ermənistanın SU-25 təyyarəsini vurdu. Dedim ki, sübut verin. Bizdə məlumat var, bunu bütün bu qara təbliğatın üzvləri ortaya atdılar. İndi özləri gördülər ki, bu, yoxdur. Amma bir adam bizdən üzr istədimi? Xeyr. Bizə böhtan atdılar, ləkə vurdular, ondan sonra gördülər ki, bu, yalandır. Amma üzr istə.

***-Bəli, silahlı pilotsuz uçuş aparatlarının Azərbaycan Ordusunun sərəncamına verilməsi yanılmıramsa bu hərəkatın gedişinə çox təsir etdi.***

- Doğrudur. Bunun çox böyük təsiri var. Maşallah, bu silahlı uçuş aparatları dünyanın ən yüksək səviyyəsində olan aparatlardır və onların Azərbaycan Ordusunda olması bizim ordumuzu böyük dərəcədə gücləndirmişdir. Bu aparatlar bizə böyük imkanlar yaratdı və eyni zamanda, canlı qüvvə itkisinin çox da böyük olmamasına gətirib çıxardı. Çünki əgər bu imkanlar bizdə olmasaydı, Ermənistanın Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda 30 il ərzində qurduğu istehkamları, tankları, topları, yaylım atəş qurğularını məhv etmək daha çətin ola bilərdi. Daha çox insan həlak ola bilərdi. Ona görə bu mükəmməl texnoloji intellektual məhsul Türkiyə xalqının potensialını göstərir. Biz o ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz var. Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir. Biz özümüzü müdafiə edirik, öz vətəndaşlarımızı müdafiə edirik, öz ərazi bütövlüyümüzü saxlamaq istəyirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma bizə mənsub olan bizə qalmalıdır. Otuz ildir ki, ermənilər bizim qədim torpağımızı istismar edirlər. İnsanlara o torpaqlara qayıtmağa icazə vermirlər. Beynəlxalq vasitəçilər biganə qalır, məhəl qoymur. Belə olan halda Azərbaycan özü bunu edəcək.

***- Gəncəyə hücumda bir erməni vətəndaşınızın yaralandığı məlumatını paylaşdım. Bu arada, cəbhədə gecə və gündüz müşahidə aparmaq imkanımız oldu, komandirlər Sizin onlara telefonla zəng etdiyinizi bizə söylədilər.***

- Bəli, təbii ki, bu, Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir. Yəni, bu Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Yəni mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir. Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil.

O ki qaldı mənim komandirlərə telefonla zəng etməyimə, təbii ki, onlar tarixi ədaləti bərpa edirlər. Onlar öz həyatlarını risk altında qoyurlar. Onlar qəhrəmandırlar və onlar torpaqlarımızı xilas edirlər, azad edirlər, qaytarırlar. Madagizin işğaldan azad edilməsi çox böyük strateji önəm daşıyır. Qəsəbə o qədər böyük olmasa da, bunun strateji önəmi çox böyükdür. Oranı götürmək çox çətin bir işdir. Bunu hər bir hərbçi deyər. İnanılmaz çətin bir işdir. Amma o götürüldü, Madagizdə indi Azərbaycan bayrağı qaldırıldı və həmin gün o qəsəbəyə tarixi adı qaytarıldı - Suqovuşan. Bu, bizim tarixi adımızdır.

Cəbrayıl şəhərini götürmək böyük qəhrəmanlıq tələb edir. Çünki bir daha demək istəyirəm ki, bu 30 il ərzində, atəşkəs rejimi dönəmində orada bir neçə xətt istehkam quruldu, özü də çox möhkəm. Bir də ki, o bölgənin relyefi də təbii istehkamdır. Yəni, Dağlıq Qarabağ dağlarda yerləşir. Yəni, biz aşağıdan yuxarıya gedirik. Bunun nə qədər çətin olduğunu hər kəs anlayar. Ona görə Azərbaycan əsgəri, Azərbaycan zabiti, generalı şücaət, rəşadət, cəsarət göstərir, canı, qanı bahasına ərazi bütövlüyümüzü təmin edir. İnşallah sona qədər irəliyə gedəcəyik.

***-Qarabağ, işğal edilən torpaqlar yenidən Azərbaycana qaytarılandan sonra orada yaşayan ermənilərə nə deyəcəksiniz?***

-Mən artıq öz sözümü dedim. Mən bir neçə gün bundan öncə bizim yaralı əsgərlərimizin yanına getdim, hərbi hospitalda onlarla görüşdüm. Onlara təşəkkürümü bildirdim və eyni zamanda, onlarla görüş əsnasında erməni xalqına müraciət etdim. Anlayırdım ki, onların yanında bunu demək o qədər də asan deyil, çünki onlar ermənilər tərəfindən vurulub. Amma dedim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Erməni xalqı öz hökumətini məsuliyyətə cəlb etməlidir. Öz hökumətinin yarıtmaz, çirkin siyasətinin nəticəsində bu döyüşlər baş verdi. Bizim mövqeyimiz dəyişməzdir. Torpaqlarımız azad olunandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağda yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar bir yerdə yaşayacaqlar. İki toplum çərçivəsində, bir ölkə ərazisində. Bu gün Azərbaycanda minlərlə erməni var. Siz də qeyd etdiyiniz kimi, Gəncədə Ermənistanın hücumu nəticəsində yaralanmış insanlardan biri də milliyyətcə ermənidir. Burada ermənilər yaşayır. Onlara söz deyən yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Erməni xalqı öz hakimiyyətinin əsiridir. Təəssüflər olsun ki, Paşinyan hakimiyyəti iqtidara gələndə çox vədlər verdi. Biz də ümid edirdik ki, artıq o köhnə kriminal rejim tarixə atıldı. Amma bunun yerinə yeni rejim gəldi, o rejim ki, artıq öz xalqını bəlaya saldı. O rejim ki, indi bizim mülki insanlarımızı, əsgərlərimizi öldürür. Mən tam əminəm ki, erməni və Azərbaycan xalqları barışacaq. Bu gün bir çox ölkələrdə ermənilər və azərbaycanlılar bir yerdə yaşayırlar. Gürcüstanda, orada 300 minə yaxın azərbaycanlı, 200 minə yaxın erməni var. Bəzən onlar bir kənddə yaşayırlar. Onların arasında problem yoxdur. Türkiyədə, Rusiyada, - Rusiya vətəndaşı olan azərbaycanlıların sayı 700 minə yaxındır, - bir yerdə yaşayırlar. Heç bir problem yoxdur. Nə üçün burada yaşamasınlar? Onsuz da yaşayıblar bir yerdə. Mənim xatirəmdədir, 1982-ci ildə mərhum atamla birlikdə Dağlıq Qarabağa - Şuşaya getmişdik. Bizim böyük şairimiz Vaqifin məqbərəsi açılırdı. Bu məqbərənin açılışı mərasimində erməni və Azərbaycan şairləri şeirlər deyirdilər, Azərbaycan dilində, erməni dilində. O bir dostluq bayramı idi. Yəni, o, mənim şahidi olduğum mənzərədir. Bizim Bakı şəhərində ermənilər yaşayırdı. Yəni bizim heç bir problemimiz yox idi. Biz istəyirik ki, yenə də birlikdə yaşayaq. Yenə də Ermənistanla yaxşı qonşular kimi yaşayaq. Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Biz onları belə tanıyırıq. Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq.

> **“30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar”**

***-Mərhum atanızın sizə Dağlıq Qarabağla bağlı vəsiyyəti olubmu, olubsa nə idi?***

-Atamın yolu mənim üçün bir işıq yoludur. Onun siyasətini davam etdirmək mənim onun oğlu kimi və Prezident kimi borcumdur. Mən ilk dəfə prezident seçiləndə andiçmə mərasimində dedim ki, Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və bu yolun Azərbaycan üçün yeganə yol olduğunu demişdim. Bütün sahələrdə - istər xarici siyasət sahəsində, istər iqtisadiyyat, sosial, o cümlədən Dağlıq Qarabağ məsələsində bu yola sadiqəm. Çünki ona da təzyiqlər olmuşdur. Onun dövründə də təzyiqlər olmuşdu ki, Dağlıq Qarabağa müstəqillik verin, Dağlıq Qarabağ sizdən ayrıldı, sizdən qopdu. O, təzyiqlərə tab gətirdi, dözdü. Azərbaycan xalqının maraqlarına zidd olan heç bir sənədə qol qoymadı. Çünki o xalqımızın Lideri idi. Qarabağ məsələsində mənim də mövqeyimdə heç vaxt tərəddüd olmamışdır. Mən 17 il bundan əvvəl nəyi demişəmsə, bu gün də deyirəm - Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq.

***-Bir millətin iki dövlətindən Azərbaycanın Prezidenti cənab İlham Əliyevə çox təşəkkür edirəm. Belə bir vəziyyətdə, müharibə şəraitində bizi qəbul etdiniz. Bir Ali Baş Komandan olaraq, sağ olun.***

-Mən təşəkkür edirəm və şadam ki, bizim söhbətimizin sonunda siz atamın çox məşhur kəlamını yada saldınız, Heydər Əliyevin sözləridir və indi bütün Türkiyə-Azərbaycan üçün bir işıq yoludur - Bir millət, iki dövlət. Türkiyə-Azərbaycan - tək millət, iki dövlət.

***- Çox təşəkkür edirəm.***

-Sağ olun. Təşəkkürlər.

# "Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir "Qarabağ Ermənistan deyil" və onda biz dayanarıq"

## *Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***



***-Əvvəllər soyuq müharibə olmuş bu münaqişə indi Azərbaycanı və Ermənistanı alova bürüyüb. Bu müharibə keçmişdən qaynaqlanır və indi artilleriya mərmilərinin səsi eşidilir. Dağlıq Qarabağ yenidən gündəmə gəlib, müharibə Qarabağdan və beynəlxalq tərəflərin müdaxilələrindən kənara doğru genişlənir, regional müharibəyə çevrilməklə bağlı xəbərdarlıqlar mövcuddur. Münaqişənin həll yolu, beynəlxalq müdaxilələr bizim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə müzakirəmizin mövzusu olacaq. Canlı yayımımıza Bakıdan Prezident İlham Əliyev qoşulur. Xoş gəlmisiniz cənab Prezident.***

-Təşəkkür edirəm.

***-Cənab Prezident, biz son günlərdə inkişaf edən hadisələrdən, Ermənistan və Azərbaycan arasında olan böhrandan başlayacağıq. Bu eskalasiyanın başlanğıcı necə oldu?***

-Sentyabr ayının 27-də Ermənistan bizim hərbi mövqelərimizə və mülki şəxslərimizə hücum etdi. Mülki şəxslərimiz bu hücumdan əziyyət çəkmişdir. Mülki şəxslərimiz arasında qurbanlar var. Bu səhərə olan məlumata əsasən 22 mülki şəxs öldürülmüş və 73-ü yaralanmışdır. Əfsuslar olsun ki, bu gün bizdə yenə sadə kəndlilərimiz arasında onlarla yaralı və qətlə yetirilənlər var. Biz cavab tədbiri görməli idik və bizim cavabımız adekvat olmuşdur. Biz əks-hücuma başladıq və bu əks-hücum nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən Ermənistanın atəş mövqelərini susdura bildik. Biz ərazilərin bir qismini, bir neçə kəndi azad edə bildik və bu gün biz 27 il Ermənistanın işğalı altında olan Cəbrayıl şəhərini azad etdik. Bizim uğurlu hərbi əməliyyatımız davam edir. Biz torpaqlarımızı azad etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün tamamilə qətiyyətliyik.

***-Prezident Əliyev, açıq-aşkar görünür ki, Azərbaycan və Ermənistan arasında hadisələrin gedişi nəzarətdən çıxır, bu hərbi əməliyyatların genişlənməsinin hər hansı bir həddi varmı?***

-Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir. Mən vasitəçilərə təklif etdim və Ermənistan xalqına da müraciət etdim ki, işğala görə öz hökumətini məsuliyyətə cəlb etsinlər və işğalı dayandırsınlar. Ermənistan buna razı olarsa, demək olar ki, 30 il ərzində qanunsuz olaraq öz nəzarətində saxladığı işğal edilmiş əraziləri boşaltmağa başlasa, müharibə dayanacaq. Bizə müharibə lazım deyil. Biz 1992-ci ildən bəri danışıqlar prosesində iştirak edirdik. Demək olar ki, bu 30 il ərzində danışıqlar masasında sıfır irəliləyiş olmuşdur. Ermənistan ərazilərimizdən qoşunların tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının qətnamələrini icra etmək istəmirdi. Əksinə, onların hərbi-siyasi rəhbərliyi yeni torpaqları işğal etməyə cəhd edirdi. Onlar Azərbaycana qarşı hücuma keçməyə cəhd edirdilər və iyul ayında onlar faktiki olaraq yeni hərbi hücuma keçdilər. Beləliklə, biz özümüzü, insanlarımızı müdafiə etməli idik və dünyanın bütün ölkələri tərəfindən tanınan, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyümüzü bərpa etməli idik.

***-Prezident Əliyev, əgər Ermənistan Sizin təqdim etdiyiniz bu təşəbbüsə cavab verməsə, bu eskalasiya davam edəcək və mülki şəxslərin həyatı üçün qorxular olacaq və bunun bədəli çox yüksək olacaq.***

-Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə, Ermənistan iyul ayında bizə qarşı hərbi hücuma keçdi və biz onlara adekvat cavab verdik. Onlar terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər və bu diversiya qrupunun başçısı yaxalanmışdır. İndi o, ifadə verir və sentyabr ayında onlar bizim kəndlərimizi və şəhərlərimizi artilleriya bombardmanına tutdular. Münaqişə bölgəsinə yaxın yaşayan sıravi azərbaycanlıların 500-dən çox evi tamamilə dağıdılmışdır və ya onlara ziyan dəymişdir. Buna görə Ermənistan bu təcavüzkar hərəkətləri dayandırmalıdır, onlar qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını üzərlərinə öhdəlik götürməlidirlər. Onlar işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı vaxt cədvəlini bizə təqdim etməlidirlər. Onların "Qarabağ Ermənistandır" deyən baş naziri indi deməlidir ki, "Qarabağ Ermənistan deyil" və bundan sonra əlbəttə ki, biz bu düşmənçiliyə son qoymağa və atəşkəs rejimini bərpa etməyə hazır olacağıq.

***-Lakin Prezident Əliyev, "Əl-Ərəbiyə" vasitəsilə Ermənistan prezidenti danışıqlar haqqında danışdı və o dedi ki, münaqişə danışıqlar yolu ilə həll olunmalıdır. Siz buna nə cavab verərdiniz?***

-Mən razıyam. Mən həllin danışıqlar vasitəsilə olduğunu düşünürəm. Lakin danışıqların məğzi olmalıdır. Ermənistanın "Qarabağ Ermənistandır" deməsi, - onların baş naziri bunu söyləyib, - münaqişənin həlli prinsiplərini faktiki olaraq məhv etdi. Çünki həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa olan ATƏT-in Minsk qrupu - onlar danışıqlar zamanı illər ərzində münaqişənin həlli üçün prinsipləri hazırlayıblar və regionumuzda dayanıqlı sülhə nail olmaq üçün birinci addım işğal olunmuş ərazilərin boşaldılmasıdır. İki il bundan əvvəl dövlət çevrilişi və Corc Soros tərəfindən maliyyələşdirilmiş "inqilab" nəticəsində hakimiyyətə gəlmiş Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyəndə o danışıqların məğzini məhv edir. Danışılası heç bir şey qalmır. Buna görə Ermənistanda hakimiyyətdə olan baş nazir öz destruktiv davranışı, hərbi toqquşmaya gətirib çıxarmış hərəkətləri barədə ciddi şəkildə düşünməlidir. Biz 28 ildir ki, danışıqlar prosesində idik və mənim Ermənistanın iki sabiq prezidenti ilə danışıqlar təcrübəm var idi. Biz həll yolunu tapmaq üçün nisbətən məqbul şəkildə işləyirdik, biz kiçik addımlar atırdıq. Biz vasitəçilərlə birlikdə münaqişənin həlli üçün əsas prinsipləri işləyib hazırlayırdıq. Sonra iki il bundan əvvəl siyasi həyatda heç bir təcrübəsi olmayan, bütün həyatı boyu hətta kiçik bir şirkətin rəhbəri olmayan, geosiyasət, beynəlxalq münasibətlər haqqında heç bir anlayışı olmayan, küçədən olan bir şəxs hakimiyyətə gəlir və öz ölkəsini dağıtmağa başlayır. İndi Ermənistan böhran vəziyyətindədir. O, əsas siyasi partiyanın rəhbərini həbs edir. O, mənim müxtəlif dövrlərdə danışıqlar üzərində çalışdığım iki sabiq prezidentə qarşı cinayət araşdırmasına başlayır. O, tamamilə despotik bir rejim yaradır və danışıqları məhv edir və biz nə etməliyik? O, azərbaycanlılara qarşı təhqiramiz bəyanatlar verir, o, təhrikedici addımlar atır və vasitəçilərin özlərini, yumşaq desək, bu qəribə davranış çox çaşdırmışdır. O, danışıqlar prosesini məhv edir. Ona görə mən hesab edirəm ki, danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri "Qarabağ Ermənistan deyil" deməlidir, çünki "Qarabağ Ermənistandır" ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik.

***Ardı Səh. 6***

## Prezident İlham Əliyev:

## Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad edib



Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

# "Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir "Qarabağ Ermənistan deyil" və onda biz dayanarıq"

## *Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib*

Əvvəli Səh. 5

***-Prezident Əliyev, tərcümə olduğuna görə müdaxilə edə bilmirdim, lakin cavabınızla bağlı şərh vermək istədiyim üç məsələ var. Birincisi, Siz Ermənistanın böhran vəziyyətində olduğunu dediniz. Lakin biz erməni xalqının öz rəhbərliyini dəstəklədiyini görürük və onlar ölkə rəhbərliyinin onları necə müdafiə etməsini alqışlayırlar. İkincisi odur ki, Ermənistanın "Qarabağ Ermənistan deyil" deməsi ərazilərdən çıxması üçün yeganə şərtdir, yoxsa danışıqlar masasına qayıtmaq üçün başqa şərtlər və ya ilkin şərtlər var? Üçüncüsü, vasitəçilərin haqqında danışdığı və ya çaşqınlıq yaşadığı ölkələr hansılardır?***

-Ölkələr haqqında artıq mən dedim, ATƏT-in Minsk qrupu. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır.

Bu qrupun nümayəndələri ilə son illər ərzində təmaslarımda bizim fikir mübadiləsi aparmaq imkanımız oldu və nə mən, nə də onlar danışıqların irəli aparılması üçün nəyin edilməsinin mümkün olduğunu bilmirdik. Çünki bildiyiniz kimi, danışıqlar prinsipləri və danışıqlar formatı müəyyən olunmuşdur. Bu, Azərbaycan tərəfindən birtərəfli qaydada müəyyən olunmamışdır. Bu, vasitəçilər tərəfindən təklif olunmuşdur və iki ölkə - Azərbaycan və Ermənistan tərəfindən qəbul olunmuşdur. Danışıqların formatı Azərbaycan və Ermənistandır, bu, iki ölkə arasında münaqişədir. Ermənistanın baş naziri bu formatın qəbuledilməz olduğunu və Azərbaycanın Ermənistanın özü də daxil olmaqla heç bir dünya ölkəsinin tanımadığı qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparılmalıdır dedi. Bu, danışıqları pozmaq üçün qəsdən edilmiş bir hərəkət idi, çünki o, bilirdi ki, nə biz, nə də vasitəçilər bunu qəbul etməyəcək. Vasitəçilər - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bunu rədd etdilər. Sonra o dedi ki, "Qarabağ Ermənistandır". Bunu onun sələflərindən heç biri əvvəllər deməmişdi. Onların heç biri. Çünki bu, danışıqların sonu deməkdir. Çünki danışıqların mahiyyəti ərazini sülh yolu ilə, danışıqlar vasitəsilə Azərbaycana qaytarmaq və sonra Dağlıq Qarabağda azərbaycanlı və erməni icması arasında normal birgəyaşayışı təmin etməkdir. Çünki müharibədən əvvəl, Ermənistan bizim ərazilərimizi işğal etməzdən əvvəl, Dağlıq Qarabağ əhalisinin 25 faizi azərbaycanlılar idi. Lakin bu gün Dağlıq Qarabağla yanaşı, erməni əhalinin mövcud olmadığı, 700 mindən çox azərbaycanlının yaşadığı Dağlıq Qarabağ ətrafındakı yeddi rayon işğal altındadır. Onların hamısı didərgin düşüb, evlərinin hamısı dağıdılıb. Bütün tarixi abidələrimiz, o cümlədən məscidlərimiz erməni barbarları tərəfindən dağıdılıb və indi biz irəliləyişə yaxınlaşdığımız bir vaxtda Ermənistan hökumətində dəyişiklik olur, siyasətlə heç bir əlaqəsi olmayan yeni insanlar, yeni komanda hakimiyyətə gəlir, bu destruktiv bəyanatları verir və addımları atır, bizə qarşı hərbi təcavüzə başlayır. Biz nə etməli idik? Biz özümüzü müdafiə etməli idik. Biz məhz bunu etdik və ərazi bütövlüyümüz bərpa olunanadək biz bunu edəcəyik.

***-Prezident Əliyev, Rusiya və Fransa Türkiyə üzərindən Suriyadan gələn muzdlularla bağlı sizə qarşı ittihamlar irəli sürür. Siz buna necə cavab verərsiniz?***

-Biz bunu tamamilə rədd edirik. Son on gün ərzində, ötən həftə Fransa Prezidenti mənə iki dəfə telefon zəngi edib. Mən ona dedim ki, bizə dəlil verin. Bizim ərazimizdə guya suriyalı döyüşçülərin olmasına dair heç bir dəlil yoxdur. O, mənə sentyabrın 27-də zəng edəndə mən ondan soruşdum və o vaxtdan bu yana məndə heç bir dəlil yoxdur. Əgər belə dəlilləri varsa, niyə bizə təqdim etmədilər? Sonra o, mənə bir neçə gün əvvəl zəng edəndə bu məsələni yenidən qaldırdı. Dedi ki, onlarda kəşfiyyat məlumatı var. Mən dedim onu bizimlə paylaşın. Heç bir dəlil və sübut təqdim etmədən ölkəni ittiham etmək doğru deyil və bu gün mən bu qəbuledilməz ittihamla bağlı Fransadan bir dəlil belə almamışam. Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur və mən Fransa Prezidentinə dedim ki, bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir. Bizim indi döyüş zonasında etdiyimiz internetdə göstərilir. Bizim müasir dronlarımızın erməni tanklarını və hava hücumuna qarşı sistemlərini necə dağıtdığını hər kəs görə bilər. Ordumuz bir kəndin ardınca o birini azad edir. Uzun illər ərzində işğal altında olan torpaqlarda bayrağımız qaldırılır. Beləliklə, bu ittihamlar tamamilə əsassızdır.

Sizə deyə biləcəyim digər bir məsələ ondan ibarətdir ki, ermənilər başqa bir feyk xəbər yayıblar ki, Türkiyəyə məxsus F-16 Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbər idi. Bu feyk xəbər mediaya təqdim olundu. Siyasətçilər, avropalı siyasətçilər bu feyk məlumatı istifadə etməyə başladılar və indi sübut olunanda ki, bu, baş verməyib, heç kim üzr belə istəmədi. Mən bizi ittiham edənlərdən üzrxahlıq tələb edirəm. Mən onlardan məsuliyyətli olmağı, söylədiklərinə nəzarət etməyi tələb edirəm. Biz ittihamlara dözəcək ölkə deyilik. Biz təhqirə dözəcək ölkə deyilik. Əgər biz düşündüyümüzü deməyə başlasaq, zənnimcə, həmin ölkələrdə çoxlu çaxnaşma olacaq. Onlar Azərbaycandan əl çəkməlidirlər, onlar regiondan əl çəkməlidirlər. Biz burada öz torpağımızdayıq. Bizim torpağımız işğal olunub. Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya müstəqillik versinlər, qoy basklara müstəqillik versinlər. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar. Azərbaycana hücum etməyi və nüfuzumuza xələl gətirməyi dayandırmalıdırlar. Əgər biz muzdlular və terrorçular barədə danışmağa başlasaq, düşünürəm ki, bizi günahlandıranlar özləri çox utancverici vəziyyətə düşəcəklər. Yaxşı olar ki, onlar bizi günahlandırmazdan əvvəl güzgüyə baxsınlar.

***-Bəziləri hesab edir ki, bu böhran genişlənsə, sizin torpaqlarınız savaş meydanına çevriləcək və bu, sizin xeyrinizə olmayacaq. Bu, bir növ sizin torpağınızda marionetlər müharibəsinə bənzəyir. Siz qorxmursunuz ki, bu, regionlar arasında mübarizə olar?***

-Xeyr, marionetlər müharibəsi yoxdur. Azərbaycan müstəqil ölkədir. Bizim müstəqilliyimiz bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Azərbaycanın beynəlxalq arenada çox güclü mövqeyi var. Mən bizim nailiyyətlərimizlə bağlı sizə cəmi iki misal gətirə bilərəm. Bir neçə il bundan əvvəl 155 ölkənin dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına seçildi. Bu, bizim müstəqil siyasətimiz sayəsində və ölkəmizin beynəlxalq ictimaiyyətin çox məsuliyyətli üzvü olması sayəsində oldu. Keçən il biz Bakıda 120 ölkənin iştirakı ilə Qoşulmama Hərəkatının sammitini keçirdik və Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürdü. Bu şərəfli vəzifə 120 ölkənin yekdil qərarı ilə Azərbaycana həvalə oldu. Marionet ölkə bu dəstəyi ala bilərmi? Marionet ölkələr miskindir. Heç kim onlara hörmət etmir. Heç kim onlara diqqət yetirmir. Bu gün Azərbaycanın sözü dünya üçün əhəmiyyət kəsb edir. Bu gün regionda Azərbaycan olmadan heç bir siyasi, iqtisadi, enerji, nəqliyyat layihəsi həyata keçirilə bilməz və bizə marionet deyənlər özləri marionetdir. Qoy onlar güzgüyə baxsınlar. Onlar ölkələrə yuxarıdan aşağı baxmağa öyrəşiblər. Biz belə vəziyyətdə deyilik. Biz öz ləyaqətimizi müdafiə edirik, biz öz müstəqilliyimizi müdafiə edirik. Dünyada heç bir ölkənin bizim işlərimizə müdaxilə etməyə haqqı yoxdur və onlar bunu başa düşməlidirlər. Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın maraqlarına xidmət edir. Azərbaycanın bir milyon insanı öz doğma torpaqlarına qayıdacağı vaxtı gözləyir və biz hökumət olaraq bunu təmin edəcəyik. Biz insanlarımızı öz vətəninə qaytaracağıq, şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik. Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq.

***-Prezident Əliyev, Avropa deyir ki, sizinlə Ermənistan arasında olan bu böhranın hərbi həll yolu yoxdur. Siz Avropanın bu mövqeyinə necə cavab verərdiniz?***

-Mən çox eşidirəm münaqişənin hərbi yolla həlli yoxdur. Birincisi, mən bununla razı deyiləm. İkincisi, yaxşı, əgər hərbi həll yolu yoxdursa, bizə qeyri-hərbi həll yolu verin, bizə diplomatik həll verin. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edin. Onlar dünyanın ən ali beynəlxalq qurumu tərəfindən qəbul olunub və bu qətnamələr erməni qoşunlarının işğal olunmuş ərazilərdən heç bir şərt olmadan çıxarılmasını tələb edir. Biz 1992-ci ildən bu yana danışıqlar aparırıq və bu 28 il ərzində hər hansı diplomatik həll olubmu? Vasitəçilər və ya digər beynəlxalq təşkilatlar bizə siyasi həll təqdim ediblərmi? Xeyr. Onlar bu münaqişəni dondurulmuş etdilər. Lakin o dondurulmuş deyil. Biz nə qədər gözləməliyik? Daha 30 il? Ermənilər bizim torpağımızda oturmağa və bizim insanlarımıza öz evlərinə geri qayıtmağa icazə verməməyə nə qədər davam edəcəklər? Əgər beynəlxalq ictimaiyyət beynəlxalq qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək. Bu da baş verir. Mən bir daha münaqişənin həllinə kömək etmək istəyən bütün tərəflərə, həmçinin Ermənistan rəhbərliyinə deyirəm ki, nə qədər gec deyil işğala indi son qoyun. Bəyanat verin ki, siz həll prinsiplərini qəbul edirsiniz, Azərbaycanın ərazi bütövlüyünü qəbul edirsiniz, işğal olunmuş bütün ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verəcəksiniz və Azərbaycan ərazisində "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir "Qarabağ Ermənistan deyil" və onda biz dayanarıq.

***-Prezident Əliyev, son olaraq, Ermənistanın ünvanına dediklərinizdən sonra bizim xəbər kanalı vasitəsilə erməni xalqı və Ermənistandakı bütün rəsmilərə demək istədiyiniz başqa bir şey varmı?***

-Bilirsiniz, bir neçə gün əvvəl mən Ermənistanın hücumu nəticəsində yaralanmış Azərbaycan əsgərlərinə baş çəkdim və onlarla söhbət edərkən mən erməni xalqına müraciət etdim. Mən başa düşdüm ki, onlar üçün mənim dediklərim adi bir şey deyil. Bu, bəlkə də onların eşitmək istədiyi yeganə şey deyildi. Çünki onlar az qala ermənilər tərəfindən öldürülmüşdülər və onların qarşısında əyləşərkən, onlara və bizim üçün belə qəhrəmanlar yetişdirmiş valideynlərinə minnətdarlığımı ifadə edərkən mən dedim ki, müraciətim həm də erməni xalqınadır. Öz hökumətinizi etdiklərinə görə məsuliyyətə cəlb edin, övladlarınızı Azərbaycana göndərməyin, öz övladlarınızı işğal olunmuş ərazilərə göndərməyin. Bu gün qondarma "Dağlıq Qarabağ ordusu"nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Bu işğala son qoyun. Azərbaycan ərazisini tərk edin. Öz torpağınızda yaşayın və onda bizdə sülh olacaq. Biz yenidən Azərbaycan və erməni xalqlarının əvvəlki normal əlaqələrini bərpa etməyə çalışacağıq. Biz çalışarıq. Bu, asan olmayacaq, lakin biz çalışarıq qonşu olaq, yanaşı yaşayaq. Bu, necə deyərlər, mənim erməni xalqına sözümdür. Ermənistan hökumətinə deyəsi sözüm yoxdur. Mən onların nə etməli olduğunu artıq dedim. Əgər onlar atəşkəs istəyirlərsə, mən artıq dedim, bizim qarşımızda üzr istəyin, bizə çıxmaqla bağlı vaxt cədvəli verin, sadəcə sözlər yox ki, biz bunu dayandıracağıq və danışıqlar aparacağıq. Bu, işləməyəcək. Onların hansı ərazini nə vaxt azad edəcəkləri ilə bağlı vaxt cədvəli - birinci gün, ikinci gün, üçüncü gün. Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil". Mənim sözüm budur.

***-Azərbaycan Prezidenti İlham Əliyev, bizə Bakıdan qoşulduğunuza görə təşəkkür edirik.***

-Təşəkkür edirəm!

***Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.***

Prezident İlham Əliyevin xalqa

müraciəti

-Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

**Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!**

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.



# “Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!”

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökürdü. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı - BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma “Dağlıq Qarabağ respublikası”na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

Biz demişdik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, “Qarabağ Ermənistandır və nöqtə” deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi. Danışıqların formatını dəyişdirmək cəhdləri - “Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır” sözləri danışıqlar prosesinə tamamilə ziddir. Adekvat cavab aldımı? Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən - Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə “andiçmə mərasimi” keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma “Dağlıq Qarabağ respublikası”nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar.

Ardı Səh. 8

# “Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!”

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

**Əvvəli Səh. 7**

Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara - məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, “Qarabağ Ermənistandır”. İndi desin “Qarabağ Ermənistandır”. İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Mehriban Əliyeva: “Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq”



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!”.

## Prezidentin köməkçisi: “Rusiya Baş Nazirinin İrəvana səfər etdiyi təsdiqlənərsə, bu, bizdə təəccüb doğuracaq”



Rusiyanın Baş Naziri Mixail Mişustinin İrəvana gözlənilməz səfər etməsi barədə məlumat yayılıb. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə bu məlumatları APA-ya şərh edib. AZƏRTACPrezidentin köməkçisinin müsahibəni təqdim edir.

***- Rusiyanın Baş Naziri Mixail Mişustinin İrəvana səfər etməsi barədə məlumat var. İki ölkə arasında müharibə getdiyi bir şəraitdə Mişustinin bu səfəri nə məna daşıyır?***

- Bu hal təsdiqlənərsə, bizdə təəccüb doğuracaq. Ermənistan və Azərbaycan arasında müharibə getdiyi bir şəraitdə Rusiyanın Baş Nazirinin İrəvana səfəri sual doğurmaya bilməz. Həmsədr ölkələr neytral olmalıdır. İndiki şəraitdə hər hansı birtərəfli addımlar faydalı deyil. Bizdə öz tərəfimizdən kimin səfər etməsi məsələsini öyrənməyə çalışacağıq.

***- Bundan bir neçə gün öncə Ermənistan Baş Nazirinin müavini hökumət təyyarəsi ilə Moskvaya səfər etmişdi. Bu da sual doğuran məsələdir. Hətta məlumat var ki, həmin mülki təyyarədə Ermənistana silah gətirilib.***

- Bu məlumatı araşdırılması üçün aidiyyəti ünvanlara göndərəcəyik. Ümumiyyətlə, mülki təyyarələr vasitəsilə silah-sursatın daşınması Beynəlxalq Mülki Aviasiya Təşkilatının təlimatlarına və aviasiya təhlükəsizliyi qaydalarına köklü surətdə ziddir. Bu fakt öz təsdiqini taparsa, onda Ermənistanın rəsmi hökumət təyyarəsi ilə silah qaçaqmalçılığını həyata keçirdiyi, uçuş trayektoriyası üzrə tranzit ölkələrə düzgün məlumat vermədiyi kimi ciddi hallar ortaya çıxır.

## Milli Məclisdə Türkiyənin Azərbaycandakı səfiri ilə görüş keçirilib



Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb. Bu barədə AZƏRTAC-a parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin Sədri deyib ki, Ermənistanın Azərbaycana qarşı təxribatlarının başlamasının ilk dəqiqələrindən Prezident Rəcəb Tayyib Ərdoğan birmənalı mövqe ortaya qoydu, Türkiyə xalqının və dövlətinin Azərbaycanın yanında olduğunu bildirdi. “Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop şəxsən mənə zəng edərək öz dəstəyini ifadə etdi, Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Milli Müdafiə naziri Hulusi Akar öz mövqelərini ortaya qoydular”, - deyə Sədr diqqətə çatdırıb.

Milli Məclisin Sədri Azərbaycana verilən bu dəstəyə görə Türkiyə xalqına, dövlətinə və rəsmilərinə dərin təşəkkürlərini çatdırmağı səfirdən xahiş edib. Sədr Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiyanın da Ermənistanın ölkəmizə qarşı təxribatlarını pisləyən Birgə Bəyanatla çıxış etməsini yüksək qiymətləndirdiyini ifadə edib. Milli Məclisin Sədri TBMM Sədrinə yazdığı məktubda siyasi partiyaların bu dəstəyinə görə təşəkkürünü bildirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Türkiyənin ölkəmizə hərtərəfli dəstəyi ulu öndər Heydər Əliyevin dediyi kimi, “bir millət, iki dövlət” fəlsəfəsinə uyğundur.

Sahibə Qafarova Ermənistanın təxribatları ilə bağlı Türkiyənin televiziya kanallarının mütəmadi verilişlər hazırladığını, “TRT Haber”in ondan müsahibə aldığını da xatırladıb. Sədr Türkiyə Böyük Millət Məclisinin Parlamentlərarası İttifaqdakı nümayəndə heyətinin rəhbəri, deputat Ravza Kavakçının da telefon zəngini və ölkəmizə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib.

Bu görüşdən və Milli Məclisin Sədrinin sözlərindən dərin məmnunluq duyduğunu bildirən Erkan Özoral diqqətə çatdırıb ki, Qafqaz İslam Ordusunun 100 illiyinin və Azərbaycanın Dağlıq Qarabağın azad edilməsi uğrundakı zəfər yürüşünün onun səfir olduğu dövrə təsadüf etməsinə görə özünü çox şanslı hesab edir. Səfir Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəkkürlərini Türkiyə xalqına, dövlətinə və rəsmilərinə çatdıracağını qeyd edib. Bildirib ki, Azərbaycan Türkiyənin qardaşıdır, Türkiyə qardaşlıq borcunu yerinə yetirir və bundan sonra da bu istiqamətdə addımlarını atmağa davam edəcək. Söhbətin sonunda ən qısa müddətdə Azərbaycan Ordusunun qələbə xəbərlərinin eşidiləcəyinə əminlik ifadə olunub.

# Putin Nikol Paşinyanı rəzil etdi!

*"Rossiya-1" telekanalı Paşinyanın Kremlə aramsız zənglərini əks etdirən kadrlar yayıb*



"Rossiya-1" telekanalı Prezident Vladimir Putinin Rusiyanın hökumət üzvləri ilə keçirdiyi iclas zamanı Ermənistan baş naziri Nikol Paşinyanın Kremlə aramsız zənglərini əks etdirən kadrlar yayıb.

AZƏRTAC xəbər verir ki, "Moskva, Kreml, Putin" verilişində Prezident Vladimir Putinin iclasda iştirakı zamanı Paşinyanın ona dəfələrlə zəng vurduğu əks olunur. Kadr arxasında Vladimir Salavyov bildirir ki, Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı digər ölkələrin rəhbərləri Vladimir Putinə daim zəng vururlar. Kadrlardan görünür ki, Vladimir Putin zənglərə cavab vermir.

Müxbir Prezidentin mətbuat xidmətinə istinadla deyir ki, zəng vuran Paşinyandır. Daha sonra iki dəfə Fransa Prezidenti Makron zəng vurub. Bundan sonra Rusiya Prezidentinin köməkçisi ona məktub da çatdırır. Vladimir Putin iclasın sonunadək Paşinyanın zənglərinə cavab vermir.

# Prezidentin Hərbi məsələlər üzrə köməkçisindən çağırış



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu döyüş tapşırıqlarının uğurlu icrasını təmin edərək uzun illər işğal altında olan torpaqlarımızı azad edir, ərazi bütövlüyümüzü bərpa edir.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev AZƏRTAC-a bildirib ki, Ordumuz düşmənə sarsıdıcı zərbələr endirir və hər gün müsbət nəticələr əldə olunur.

Sözsüz ki, bu qürurverici tarixi anlar bizim böyük sevincimizə səbəb olur, ərazi bütövlüyümüzün qısa zamanda bərpa olunacağı günü yaxınlaşdırır. Lakin unutmamalıyıq ki, ölkəmizdə hərbi vəziyyət və karantin rejimi qüvvədədir. Vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə xahiş olunur ki, hər kəs müəyyən olunmuş qayda-qanuna ciddi riayət etsin. Bir qədər təmkinli olaq, səbir nümayiş etdirək, Qələbə bizimlədir - Qarabağ Azərbaycandır!

# Azərbaycanın Baş prokuroru: Ermənistanın kriminal hərbi-siyasi rejimi müharibə qanunlarını pozur



Dağlıq Qarabağdakı qondarma rejimin "rəhbəri" Araik Arutunyan və digərlərinin cəzalandırılması üçün lazımi addımlar həyata keçirilir. Düşmən mülki şəxsləri hədəfə almaqla döyüş meydanındakı uğursuzluqlarına don geyindirmək istəyir. Onların məqsədi Azərbaycanın dinc əhalisini qorxutmaqdır. Lakin sizi əmin edirəm ki, bunların heç biri alınmayacaq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev oktyabrın 5-də təşkil olunan brifinqdə deyib. Baş prokuror bildirib ki, toqquşmalar artıq yeni fazaya keçib. Ermənistanın kriminal hərbi-siyasi rejimi müharibə aparmağın bütün qaydalarını pozaraq çox təhlükəli addımlar atır. Dünən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Ermənistan ordusunun artilleriya atəşinə məruz qalıb. Mülki əhaliyə külli miqdarda ziyan dəyib. Düşmən bu təhlükəli addımı bu gün də davam etdirib. Ermənistanın və qondarma "rejim"in rəhbərliyinin göstərişi ilə Mingəçevir şəhəri də düşmənin hücumuna məruz qalıb. Azərbaycan Ordusunun peşəkarlığı sayəsində bu addımların qarşısı alınıb.

Abşeron və Xızı rayonlarının da Ermənistan ordusu tərəfindən raket zərbələrinə məruz qaldığını vurğulayan Baş prokuror deyib ki, qondarma "rejim"in rəhbəri Araik Arutunyan Azərbaycana qarşı bu addımları ilə fəxr edir, bu barədə sosial şəbəkə hesablarında paylaşım edir. Cinayətkar rejim müharibə qaydalarını pozur.

# Azərbaycan Müdafiə Nazirliyi: Ermənistan cəbhədəki qoşunlarını təmin edə bilmir




Ermənistan silahlı qüvvələrinin Hadrutda yerləşən 1-ci motoatıcı alayının müdafiə sahəsində silah-sursat, ərzaq və yanacaq çatışmazlığı yaranıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, alayın 3-cü taborunun şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Eyni zamanda, hərbi hissənin sürücüləri də döyüş və avtomobil texnikalarını ataraq döyüş zonasından qaçıblar.

# "The Korea Times": Azərbaycan lideri Ermənistanın geriçəkilmə cədvəli tərtib olunanadək döyüşlərin davam edəcəyini deyib



The Korea Times | All | Login Register Subscribe E-paper Site Map

World

Asia Pacific Americas Europe & Africa SCMP

Mon, October 5, 2020 | 17:36

aws 存储和保护您的数据。 免费试用 »

Asia Pacific

Azerbaijan's leader says no end to fighting until Armenia sets pullout timetable

Posted : 2020-10-05 13:08
Updated : 2020-10-05 13:08

Azerbaijan's President Ilham Aliyev speaks during an address to the nation in Baku, Azerbaijan, Oct. 4, 2020. Handout via Reuters

Azerbaijan's President Ilham Aliyev demanded on Sunday that Armenia set a timetable for withdrawing from the enclave of Nagorno-Karabakh and surrounding Azeri territories, and said Azerbaijan would not cease military action until that happened.

In a televised address to the nation, Aliyev said Azeri forces were advancing in a week-long offensive to retake lands that they lost to ethnic Armenians in the 1990s.

全球托运

Top 10 Stories

1. Chinese vlogger dies after being set on fire by ex-husband
2. Foreign minister in hot seat over husband's yacht-buying trip to US
3. The man behind BTS' global success to become 14th-richest stockholder in Korea
4. Trump's COVID-19 infection casts shadow over Moon's peace efforts
5. K-pop star Woojin breaks silence on sexual harassment allegations
6. Will mass coronavirus infections hit Korea after Chuseok holiday?
7. Federal authorities to take over Indian gang-rape investigation

"Azərbaycan əsgəri onları iti qovan kimi qovur! Onların postları bizim əlimizdədir! Onların silahlı texnikaları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 4-də xalqa müraciətində səsləndirdiyi bu fikirlər Cənubi Koreyanın nüfuzlu "The Korea Times" qəzetində dərc olunan "Azərbaycan lideri Ermənistanın geriçəkilmə cədvəli tərtib olunanadək döyüşlərin davam edəcəyini deyib" sərlövhəli məqalədə əksini tapıb. Qeyd olunub ki, Prezident İlham Əliyev 1990-cı illərdə ermənilərin tutduğu torpaqların azad olunması uğrunda Azərbaycan Ordusunun bir həftədir mübarizə apardığını deyib.

Məqalədə dövlətimizin başçısının "Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!" fikrinə də yer verilib.

"The Korea Times"da Qarabağ münaqişəsi ilə bağlı dərc olunmuş digər məqalədə isə ermənilərin Gəncə və Mingəçevir şəhərlərini atəşə tutmasından söz açılıb. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla bildirilib ki, Ermənistan ölkənin iri şəhərlərindən biri olan Gəncədəki mülki binaları raket atəşinə tutması nəticəsində bir mülki şəxs ölüb, 32 nəfər yaralanıb. Habelə böyük su anbarının və elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhəri də raket hücumuna məruz qalıb. Qeyd olunub ki, Dağlıq Qarabağdakı ermənilərin rəhbəri Gəncəyə raket hücumunu onların həyata keçirdiyini etiraf edib.

Məqalədə Müdafiə naziri Zakir Həsənovun "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir" fikrinə də yer verilib. Diqqətə çatdırılıb ki, Dağlıq Qarabağ sovet dövründə Azərbaycanın tərkibində muxtar bölgə olub. SSRİ-nin dağılması ərəfəsində başlayan müharibə 1994-cü ildə atəşkəs razılaşması ilə dayandırılıb. O vaxtdan bəri erməni silahlı qüvvələri Dağlıq Qarabağla yanaşı, onun ətrafındakı bir neçə rayonu işğal altında saxlayıblar. Azərbaycan tərəfi oktyabrın 4-də Cəbrayıl şəhəri də daxil olmaqla, rayonun bir neçə yaşayış məntəqəsini azad edib.

# Hikmət Hacıyev: "Ermənistanın Azərbaycana qarşı son hücumları onun dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinin göstəricisidir"



Biz Ermənistanın Azərbaycana qarşı son hücumlarını qəti şəkildə pisləyirik. Bu, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinin göstəricisidir. Bu əmrlər bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin tapşırığı ilə həyata keçirilir. Burada da beynəlxalq hüquqa əsasən, Ermənistan siyasi rəhbərliyində və qondarma qurumun rəhbərliyində olan şəxslər məsuliyyət daşıyır. AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, ermənilər tərəfindən hədəfə alınan yerlər arasında hərbi obyektlər yoxdur. Bu hücumlar məqsədyönlü şəkildə həyata keçirilir, artıq uzaqmənzilli raketlərdən də istifadə edilir. Bu raketlər artıq Xızı şəhərinə qədər gəlib çıxıb. Bu, Ermənistan dövlətinin terrorçu əməllərini göstərir. Ermənistan tərəfi öz uğursuzluqlarını örtbasdır etmək üçün bu cür addımlar atır. Bu gün hamımız səfərbərik. Hamımızın bir amalı var ki, işğal altında olan torpaqlarımız işğaldan azad edilsin.

Prezidentin köməkçisi bildirib ki, bu gün ermənilər döyüş meydanında ümidsiz və çarəsiz vəziyyətdədirlər. Son hadisələri hərbi və siyasi təxribat kimi qiymətləndiririk. Onlar üçüncü tərəfləri münaqişəyə cəlb etməyə çalışırlar. Azərbaycan tərəfi bunu çox gözəl bilir, bununla bağlı beynəlxalq təşkilatlara, ölkələrə də məlumat verib. "Xain düşmənimizdə hər hansı etik qayda yoxdur. Ölkəmizə qarşı müharibə siyasəti çox eybəcər şəkildə aparılır. Biz Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzündə bunun bir daha şahidi olduq. Silahlı Qüvvələrimiz də onların layiqli cavablarını verir və verəcək."

Prezidentin köməkçisi deyib ki, Azərbaycan cəmiyyəti, vətəndaşlarımız ən güclü şəkildə səfərbərdir. Biz işğal altındakı torpaqlarımızın azad olunması istiqamətində fəaliyyətimizi davam etdiririk. Bu gün hər birimiz qürur hissi duyuruq. Ali Baş Komandanın rəhbərliyi ilə hər bir Azərbaycan vətəndaşı tarixi, hüquqi əsaslarla öz torpaqlarının işğaldan azad edilməsini istəyir. Bizim işimiz haqq işidir. Qarabağ bizimdir!

## Ermənistan ordusunun 4 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib

Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya alayının 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. Bu barədə AZƏRTAC-Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.



***Ermənistan silahlı qüvvələri müharibə cinayəti törədərək, Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri artilleriya atəşinə tutmağa davam edir. Nəticədə mülki obyektlərə, dinc əhalinin əmlakına külli miqdarda ziyan vurulur, infrastruktur sıradan çıxır.***










AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, işğalçı Ermənistan hərbçilərinin hədəfə aldığı yaşayış məntəqələrindən biri də Tərtər rayonunun Əskipara kəndidir. Düşmənin artilleriya atəşləri nəticəsində sentyabrın 27-dən indiyə kimi kəndin ərazisinə 300-dən çox mərmi düşüb. Nəticədə 1 nəfər kənd sakini yaralanıb, 3 ev dağılıb, 24 evə, 2 yardımçı binaya, həmçinin infrastruktura, kənd təsərrüfatına ziyan dəyib, 5 baş iribuynuzlu, 6 baş xırdabuynuzlu heyvan tələf olub.

Xüsusi qeyd etmək lazımdır ki, Əskipara kənd tam orta məktəbi də artilleriya atəşinə tutulub. Bu, bir daha göstərir ki, Azərbaycan əsgəri ilə üz-üzə döyüşməkdən qaçan düşmən bütün müharibə qanunlarını pozur və bu, vandalizmin açıq-aşkar sübutudur. Beynəlxalq təşkilatlar və dünya dövlətləri isə buna səssiz qalır.

Ermənistan hərbçiləri tərəfindən kəndin atəşə tutulması dünən də davam edib. AZƏRTAC-ın fotoqrafı Roman İsmayılovun Əskipara kəndində çəkdiyi fotoları təqdim edirik.

# Beynəlxalq təşkilatlar və dünya dövlətləri erməni vandalizminə hələ də səssiz qalır!










Sections
The Washington Post
Democracy Dies in Darkness
Get 1 year for $29

Hikmet Hajiyev, aide to Azerbaijani President Ilkham Aliyev, said Sunday that Armenia targeted large cities Ganja and Mingachevir with missile strikes. Ganja, home to several hundred thousand residents and the country's second-largest city, is located roughly 100 kilometers (about 60 miles) away from Stepanakert, Nagorno-Karabakh's capital, and so is Mingachevir.

The clashes erupted on Sept. 27 and have killed dozens, marking the biggest escalation in the decades-old conflict over the region, which lies within Azerbaijan but is controlled by local ethnic Armenian forces backed by Armenia.

Hajiyev on Sunday tweeted a video depicting damaged buildings, and called it the result of "Armenia's massive missile attacks against dense residential areas" in Ganja. It wasn't immediately possible to verify the authenticity of the video.

Hajiyev said in another tweet on Sunday evening that Armenian forces also

Most Read National Security

1 Justice Dept., FBI planning for the

## "The Washington Post" nəşri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə zonasından kənarda yerləşən şəhərlərinə raket zərbələri haqda yazıb

*"The Washington Post" qəzetində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə zonasından kənarda yerləşən şəhərlərinin yaşayış məhəllələrinə raket zərbələri haqda məqalə dərc edilib.*

AZƏRTAC xəbər verir ki, məqalədə Prezident İlham Əliyevin köməkçisi Hikmət Hacıyevin bazar günü Ermənistanın Gəncəyə və Mingəçevirə raket zərbələri endirməsi barədə bəyanatla çıxış etməsi qeyd olunur. Bir neçə yüz min nəfərin yaşadığı, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə Xankəndidən təqribən 100 kilometr məsafədə yerləşir.

Oktyabrın 4-də Hikmət Hacıyev öz "Twitter" səhifəsində Gəncədəki zədələnmiş binaların təsvir edildiyi video yerləşdirib. H.Hacıyev videoda təsvir edilənləri "Gəncədə əhalisi sıx olan rayonlara Ermənistan tərəfindən şiddətli raket zərbələrinin nəticəsi" hesab edir. Nəşrdə, həmçinin qeyd edilir ki, Ermənistan silahlı qüvvələri "su anbarının və əsas elektrik stansiyasının yerləşdiyi" Mingəçevirə də raket zərbəsi endirib.

Məqalədə qeyd olunur ki, Azərbaycan rəsmilərinin verdiyi məlumata görə mülki infrastruktura zərbələr endirilməsi nəticəsində 1 dinc sakin həlak olub, 32 nəfər yaralanıb. Azərbaycanın Müdafiə naziri Zakir Həsənov deyib: "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq-aşkar təxribatdır və döyüş əməliyyatı zonasını genişləndirir".

H.Hacıyevin sözlərinə görə Mingəçevirdə infrastruktura ciddi ziyan vurulmayıb, lakin zərbələr nəticəsində dinc sakinlər yaralanıb.

Bazar günü Azərbaycan Prezidenti İlham Əliyev öz "Twitter" səhifəsində yazıb ki, Azərbaycan qoşunları Cəbrayıl şəhərini və həmin rayonun bir neçə kəndini işğaldan azad ediblər.

Məqalədə qeyd edilir ki, 1994-cü ildə atəşkəs haqqında müqavilə bağlanmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri təkcə Dağlıq Qarabağı deyil, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti hüdudlarından kənarda yerləşən xeyli ərazini, o cümlədən Cəbrayıl rayonunu işğal ediblər. Bazar günü Azərbaycan qoşunları Cəbrayılı işğaldan azad ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, döyüş əməliyyatlarının dayandırılması üçün yeganə şərt Ermənistan qoşunlarının Dağlıq Qarabağdan çıxarılmasıdır.

Türkiyənin Xarici İşlər Nazirliyi bazar günü ermənilərin Gəncəyə hücumunu pisləyərək bildirib ki, bu hücum Ermənistan tərəfindən beynəlxalq hüququn pozulmasına sübutdur. Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndələri deyiblər: "Ermənistan regionda sülhə və sabitliyə nail olmaq yolunda ən böyük əngəldir". Məqalədə deyilir ki, Ankara Ermənistanı mülki yaşayış məhəllələrinə hücum etməkdə təqsirləndirib və Ermənistanın insanlığa qarşı cinayətlər törətdiyini bildirib.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ilin aprel-noyabr aylarında Azərbaycan ərazilərinin işğalını pisləyən, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını, azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin mart ayında BMT Baş Assambleyası BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri barəsində beynəlxalq birliyin mövqeyini bir daha təsdiq edən 62/243 nömrəli qətnamə qəbul edib. BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri əsasında müxtəlif ölkələrin qanunverici orqanları və beynəlxalq təşkilatlar erməni işğalçı dəstələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən onlarca qətnamə qəbul ediblər.

## Dmitri Savelyev: Gəncənin atəşə tutulması dünya birliyi tərəfindən qətiyyətlə pislənilməlidir



Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə raket zərbələrinə məruz qalıb. Zənnimcə, cəbhə xəttindən 60 kilometr məsafədə yerləşən şəhərin atəşə tutulması birmənalı olaraq məhz dinc sakinlərə zərbə endirmək, Azərbaycan xalqına ziyan vurmaq niyyəti daşıyır. Mahiyyətinə görə müharibə cinayəti olan bu hücum nəticəsində 1 nəfər ölüb, 32 nəfər yaralanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə RF Dövlət Dumasının deputatı, "Rusiya-Azərbaycan" dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirib.

"Oxşar hadisələrə gələcəkdə yol verilməməsi üçün dünya birliyi buna bənzər hərəkətləri qətiyyətlə pisləməli və Ermənistanın rəsmi hakimiyyət orqanlarına təzyiq göstərməlidir. Rusiya Azərbaycanın ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində dinc yolla həll olunmasının vacibliyi mövqeyində durur. Dinc sakinlərin, eləcə də hərbi əməliyyatların iştirakçılarının ölümü hamı üçün ağrı-acıdır, bütün işğal olunmuş ərazilərdən qoşunların dərhal çıxarılması yolu ilə qan tökülməsinin qarşısını almaq lazımdır", - deyə rusiyalı deputat qeyd edib.

## Leyla Abdullayeva: Ermənistan tərəfindən xarici terrorçu qüvvələr və muzdlular Azərbaycana qarşı geniş şəkildə istifadə olunur



Son hadisələr çərçivəsində Ermənistan tərəfindən xarici terrorçu qüvvələr və muzdlular geniş şəkildə Azərbaycana qarşı istifadə olunur. Açıq mənbələrdə yer alan xəbərlərə görə, Yaxın Şərq bölgəsindən, xüsusən Suriya, Livan, Rusiya, Gürcüstan, Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdən erməni əsilli şəxslərin işğal olunmuş ərazilərə gəlməsi və yaxud bu istiqamətdə yola düşməsi ilə bağlı açıq faktlar və məlumatlara rast gəlinir.

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 5-də keçirilən brifinqdə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib.

Ermənistanın siyasi rəhbərliyinin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasətini davam etdirdiyini vurğulayan idarə rəisi bildirib: "Ermənistan bir müddət əvvəl Livanda baş vermiş partlayışdan sonra bu ölkədəki erməni əsilli şəxslərin Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi ilə bağlı qeyri-qanuni fəaliyyətini nümayişkaranə şəkildə davam etdirib.

Daha sonra müdafiə haqqında qanuna dəyişiklik edərək könüllü silahlı qruplaşmaların yaradıldığını elan edən Ermənistan artıq bu bölgədən köçürdüyü insanların sonradan hərbi birləşmələrə inteqrasiya edilməsi və Azərbaycana qarşı aparılan döyüşlərdə istifadə olunması məqsədi güdür.

Son zamanlar biz Ermənistan hökumətinin xaricdə fəaliyyət göstərən diaspor təşkilatları vasitəsilə xaricdəki ermənilərin toplanması və Ermənistana yola düşməsi, həmçinin bu istiqamətdə maliyyələşdirmə, dəstək tədbirlərinin, ianələrin ayrılması ilə bağlı böyük canfəşanlıqla fəaliyyət göstərdiyini açıq şəkildə müşahidə edirik".

## Dmitri Peskov: Rusiyanın Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar Azərbaycan və Türkiyə ilə dialoqu yüksək səviyyədə və daimi əsasda həyata keçirilir



Rusiyanın Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar Azərbaycan və Türkiyə ilə dialoqu yüksək səviyyədə və daimi əsasda həyata keçirilir. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edib.

Kremlin nümayəndəsi əlavə edib ki, bu, prezidentlərin iş qrafikinin münasibliyindən asılıdır. "Bu, heç də o demək deyil ki, Rusiya tərəfi işgüzar əlaqələrdə hansısa kəsir hiss edir. Əksinə, RF XİN-in rəhbəri S.Lavrov Azərbaycan və Türkiyədən olan həmkarları ilə daim əlaqədə olur", - deyə Kremlin nümayəndəsi bildirib. O qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi mövzusu üzrə Rusiya-Türkiyə və Rusiya-Azərbaycan dialoqu yüksək səviyyədə və daimi əsasda həyata keçirilir.

D.Peskov zərurət yaranacağı halda Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Dağlıq Qarabağdakı vəziyyətlə bağlı telefon danışıqları aparacağını istisna etməyib.

## Mövlud Çavuşoğlu: "NATO başda olmaqla hər kəs Ermənistandan Azərbaycan torpaqlarından çəkilməsini tələb etməlidir"



Ermənistanın mülki Azərbaycan əhalisinə hücumları yeni deyil. Ermənistan tarixinə nəzər salsaq, Xocalıda uşaq və qadınlar da daxil olmaqla 613-dən çox insanın necə qətlə yetirdiyini görə bilərik. Bu ilin iyulunda Ermənistan yenə mülki əhaliyə hücum etdi. Bu dəfə də həm azərbaycanlı hərbçilər, həm də dinc əhali arasında ölənlər oldu. İndi Bakı ətrafına və Gəncəyə raket atıblar. Əslində bu hərəkətlər müharibə cinayətidir. Azərbaycan isə işğal altındakı torpaqlarını azad etmək üçün mübarizə aparır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu NATO-nun Baş katibi Yens Stoltenberqlə Ankarada keçirdiyi birgə mətbuat konfransında ifadə edib.

Ermənistanın işğalçılıq siyasətinə dözməyin mümkünsüz olduğunu diqqətə çatdıran nazir deyib ki, Ukrayna və Gürcüstanın ərazi bütövlüyü məsələsi ortaya çıxanda haqlı olaraq hər iki ölkəni müdafiə edirik. Lakin məsələ Azərbaycana gələndə haqsızlıq görürük. Minsk qrupunun həmsədrlərindən olan Fransa birtərəfli qaydada Ermənistanı müdafiə edir. Biz hamını haqlının tərəfində olmağa dəvət edirik. NATO başda olmaqla hər kəs Ermənistandan Azərbaycan torpaqlarından çəkilməsini tələb etməlidir.

# XİN: Ermənistanın Azərbaycan şəhərlərinə raket hücumları münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdür



***Azərbaycan Respublikasına qarşı yeni təcavüzü çərçivəsində Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, habelə Ermənistanın müvafiq beynəlxalq öhdəliklərini pozaraq Azərbaycanın mülki əhalisini və infrastrukturunu qəsdən hədəfə alır.***

Ermənistan tərəfinin məqsədyönlü atəşləri nəticəsində bu günədək 24 nəfər azərbaycanlı mülki şəxs qətlə yetirilib, 121 nəfər yaralanıb, 300-dən çox yaşayış binası və mülki obyektlər dağıdılıb.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb. Açıqlamada, həmçinin deyilir: "Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, sənaye şəhəri olan Mingəçevir, habelə Xızı və Abşeron rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və müstəsna əhəmiyyətli infrastrukturunun Ermənistan ərazisindən məqsədyönlü şəkildə raket hücumlarına tutulması hərbi əməliyyatlar zonasını genişləndirmək və münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdən təxribatdır.

Azərbaycan tərəfində Azərbaycanın mülki əhalisi və infrastruktur obyektlərinin məhz Ermənistan ərazisindən, o cümlədən Gorus, Sisyan, Cermuk və Berd şəhərlərindən raket atəşinə tutması barədə tutarlı faktlar var.

Bütün dəlillər yerli və xarici mütəxəssislərin, o cümlədən yerlərdə olan xarici jurnalistlərin iştirakı ilə toplanaraq müvafiq beynəlxalq təşkilatlara təqdim ediləcək.

Ermənistanı beynəlxalq hüququn normaları və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində öhdəliklərinə tabe olmağa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çəkilməsinə dair tələblərini yerinə yetirməyə çağırırıq. Bir daha təkrar edirik ki, Azərbaycan Silahlı Qüvvələrinin mülki şəxslərin və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin dərinliyindəki yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etmək üçün həyata keçirəcəyi əks-hücum tədbirlərinin nəticələrinə görə tam məsuliyyət məhz Ermənistan rəhbərliyinin üzərinə düşür".

## Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti Ermənistana aid mühüm sənədlər yayıb

***Müharibə dövründə Ermənistan vətəndaşlarının hərbi xidmətdən yayınmaq üçün vətəndaşlıqdan imtina etmələrini sübut edən sənədlər əldə olunub. Həmin sənədlər Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən Ermənistan polis orqanlarına və qondarma "Dağlıq Qarabağ Respublikası"nın Xarici İşlər Nazirliyinə göndərilib.***



Ermənistan Respublikası Xarici İşlər Nazirliyi Konsulluq İdarəsi
MINISTRY OF FOREIGN AFFAIRS OF THE REPUBLIC OF ARMENIA
CONSULAR DEPARTMENT

№ 1103/21653-20
02.10.2020

Polisin pasportlar və viza idarəsinin
Rəisi
Ara Mkrtçyana

Hörmətli cənab Mkrtçyan

ER vətəndaşlığından çıxmaq xahişi ilə Fransada Ermənistan Respublikasının Səfirliyinə vətəndaş Yura Manukyan müraciət edib.

Xahiş edirəm, vətəndaşın müraciətini araşdırın və nəticələri barədə XİN-in konsulluq idarəsinə məlumat verin.

Qoşma: 11 səhifə.

Hörmətlə,

İdarə rəisinin vəzifələrini icra edən

Artak Avetisyan

...aryan
...əsinin əməkdaşı
...m.baghdasaryan@mfa.am



ՀԱՅԱՍՏԱՆԻ ՀԱՆՐԱՊԵՏՈՒԹՅԱՆ ԱՐՏԱՔԻՆ ԳՈՐԾԵՐԻ ՆԱԽԱՐԱՐՈՒԹՅՈՒՆ
ՀՅՈՒՊԱՏՈՍԱԿԱՆ ՎԱՐՉՈՒԹՅՈՒՆ
MINISTRY OF FOREIGN AFFAIRS OF THE REPUBLIC OF ARMENIA
CONSULAR DEPARTMENT

№ 1103/21631-20
29.09.2020

ՈՍՏԻԿԱՆՈՒԹՅԱՆ ԱՆՁՆԱԳՐԱՅԻՆ ԵՎ ՎԻԶԱՆԵՐԻ ՎԱՐՉՈՒԹՅԱՆ ՊԵՏ
ԱՐԱ ՄԿՐՏՉՅԱՆԻՆ

Հարգելի պարոն Մկրտչյան

ՀՀ քաղաքացիությունից դուրս գալու խնդրանքով Սանկտ-Պետերբուրգում Հայաստանի Հանրապետության գլխավոր հյուպատոսություն է դիմել քաղաքացի Էդուարդ Ղահրամանյանը:

Խնդրում ենք քննարկել քաղաքացու դիմումը և արդյունքների մասին հայտնել ԱԳՆ հյուպատոսական վարչություն:

Առդիր 11 էջ:

Հարգանքով

ՎԱՐՉՈՒԹՅԱՆ ՊԵՏԻ ՊԱՇՏՈՆԱԿԱՏԱՐ

ԱՐՏԱԿ ԱՎԵՏԻՍՅԱՆ

Մարիետա Բաղդասարյան
Հյուպատոսական վարչության գործավար
Հեռ. 060620600
Էլ.փոստ m.baghdasaryan@mfa.am

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu barədə Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb.

Məlumatda deyilir: "Azərbaycanın erməni təxribatına qarşı 27 sentyabr 2020-ci il tarixindən etibarən həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı, guya dünyanın müxtəlif ölkələrində olan erməni əsilli şəxslərin döyüşmək üçün könüllü olaraq Qarabağa gəlməsi barədə Ermənistan tərəfindən mütəmadi olaraq yayılan məlumatların yalan olduğu müəyyənləşmişdir. Belə ki, Naxçıvan Muxar Respublikası Dövlət Təhlüksəziliyi Xidməti tərəfindən düşmən Ermənistanın Xarici İşlər Nazirliyinə məxsus sənədlərinin əldə edilməsi nəticəsində döyüş əməliyyatlarının başlanılmasından sonra bir çox ermənin orduya çağırılmamaq məqsədilə vətəndaşlıqdan imtina etməsi və bu barədə Ermənistanın xarici ölkələrdə yerləşən səfirlik və konsulluqlarına müraciət etməsini sübut edən sənədlər əldə edilmişdir".

# Erməni hərbçilərinin müharibə cinayətləri davam edir: Bərdədən görüntülər

***Erməni silahlı qüvvələri dünən yenidən Beyləqan, Bərdə və Tərtər şəhərlərində dinc sakinləri hədəf alıb. AZƏRTAC-ın Bərdəyə ezam olunmuş müxbiri xəbər verir ki, erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq mülki əhalisinin sıx yaşadığı məntəqələrə zərbələr endirir. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılır, infrastruktura ciddi ziyan dəyir.***

Buna baxmayaraq, Azərbaycan Ordusunun qələbə xəbərləri rayon sakinlərində böyük ruh yüksəkliyi yaradıb. Hər bir insan müsəlləh əsgər kimi torpağımızın düşmən tapdağından azad edilməsi uğrunda döyüşə qatılmağa hazırdır.

Bərdə sakini Fərhad Əliyev: Heç kim düşmənin raket atəşindən qorxmur. Düşmənlə bizim fərqimiz budur. Onlar ön xətdə də bizdən qorxurlar. Qorxaq olduqları üçün şəhərlərimizi atəşə tuturlar. Bir bərdəli kimi deyirəm ki, hamımız əldə silah savaşa getməyə, torpaqlarımızı düşməndən azad etməyə hazırıq.

Rayonda məskunlaşan Xocavənddən olan məcburi köçkün Rəşadət Hacıyev: İki oğlum döyüşdədir. Mən də müharibə veteranıyam. Torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün döyüşə getməyə hazıram. Ermənistan ordusu terroristlərdən ibarətdir. Gücləri ancaq mülki əhaliyə atəş açmağa çatır. Bununla da vəhşiliklərini göstərirlər. Ancaq bu, çox çəkməyəcək. Azərbaycan Ordusunun cəbhədə uğurlu əməliyyatları davam edir. Tezliklə Vətən torpaqlarını onlardan təmizləyəcəyik.

















Ağdamdan olan Qabil Əhmədov da rayonda məskunlaşan məcburi köçkünlərdəndir. O deyib: Biz ermənilərin məqsədini bilirik. Onlar bizi qorxu altında saxlamaq istəyirlər. Lakin düşmənin bu niyyəti həyata keçməyəcək. Hara raket atsalar da, hansı şəhəri atəşə tutsalar da bu xalq qorxan deyil. Bizim qətiyyətli Prezidentimiz var, bizim güclü ordumuz var. Düşmənlərimiz bilsinlər ki, biz bütün torpaqlarımızı azad edəcəyik. Ordumuzla döyüşdə məğlub olurlar, əvəzinə şəhərlərimizi, kəndlərimizi atəşə tuturlar. Bununla da əsl erməni xislətini bir daha nümayiş etdirirlər.

AZƏRTAC-ın fotoqrafı Roman İsmayılovun Bərdədən çəkdiyi fotoları təqdim edirik.

Qeyd edək ki, sentyabrın 27-si saat səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəf alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.




# Makronun Fransası - tərəfkeş həmsədr dövlət təcavüzkarı dəstəkləyir

***Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğaldan azad edilməsi istiqamətində əks-hücum əməliyyatı davam edir.***

Otuz ilə yaxındır bu münaqişənin həllinə vasitəçilik missiyasını üzərinə götürənlərin yarıtmaz fəaliyyəti nəticəsində Qarabağdakı separatçılar və Ermənistanın iştahası böyüdü.

Separatçılıq və işğalı davam etdirən ermənilərin ən böyük havadarı rolunda Fransa da çıxış edir. Azərbaycan ərazisinə qanunsuz olaraq keçən Parisin "Le Mond'' qəzetinin jurnalistinin yaralanması hadisəsindən Ermənistan və Fransa şou qurub. Jurnalistin yaralanması xəbərinin doğru olub-olmadığı hələ məlum deyil. Bundan başqa, əks-hücum əməliyyatı keçirilən ərazidə Azərbaycan xarici jurnalistlər üçün şərait yaradıb. Odur ki, "Le Mond"un əməkdaşı da qanuni şəkildə Azərbaycan tərəfdən döyüşləri izləyə bilərdi. Ona görə də belə bir sual yaranır: "Le Mond''un əməkdaşının Qarabağda nə işi var? O, Qarabağ ərazisinə daxil olmaq üçün vizanı hansı dövlətdən alıb?

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, mülki şəxslərə və obyektlərə atəş açmır. Deməli, jurnalistin yaralanması oyundur. Bunu Fransa prezidenti Emmanuel Makronun çıxışından da görmək olar.

O bildirib ki, Qarabağda yaralanmış jurnalistin arxasınca təyyarə göndərmək niyyətində olduğunu açıqlayıb.

Son illərin hadisələrindən məlumdur ki, Ermənistan bu sayaq hadisələrdən yararlanır. 1988-ci ildə Spitakda zəlzələ baş verəndə xaricdən Ermənistana xeyli humanitar yardım göndərildi. Sonrakı dövrdə məlum oldu ki, "humanitar yardım"ların arasında hərbi mahiyyətli yüklər də olub. Odur ki, Fransa prezidentinin göndərmək niyyətində olduğu təyyarədə başqa naməlum yükün olmayacağına təminat yoxdur.

Məsələnin başqa tərəfi də var. Ən əsası isə rəsmi Bakının icazəsi olmadan bu təyyarənin Qarabağa uçuş etməsi Azərbaycanın hava məkanının pozulmasıdır. Başqa sözlə, bu aksiya Fransanın Azərbaycan sərhədini bilərəkdən pozması, təcavüz kimi qiymətləndirilməlidir.

Emmanuel Makronun Ermənistanı birmənalı şəkildə dəstəkləməsinə dair başqa fakt da var. O, sentyabrın 27-də "hücumu Azərbaycanın başladığını'' iddia edib.

Ermənistanı müdafiə edən Emmanuel Makron daha sonra deyib: "Ermənistanın müstəqilliyi və əhalisinə hörmət göstərilməlidir".

Görünür, Fransa prezidenti həmsədr dövlətin lideri kimi münaqişə ilə o qədər "yaxından" maraqlanır ki, Dağlıq Qarabağın yerini bilmir. Əks halda, Ermənistanın suverenliyindən, onun sakinlərindən danışmazdı. Dağlıq Qarabağ Azərbaycan torpaqlarıdır. Bu torpaqlarda Azərbaycanın suveren hüquqları pozulub, Azərbaycan vətəndaşları qaçqın düşüb. Azərbaycanın 19 mülki vətəndaşı Ermənistanın açdığı atəş nəticəsində şəhid olub.

Emmanuel Makron əslində erməniləri çox sevdiyindən belə canfəşanlıq etmir. O, 2022-ci ilin aprelində keçiriləcək prezident seçkisinə indidən hazırlıq görür. Ona görə də ermənilərdən bu məsələdə istifadə etməyə çalışır.

Fransa 300 ilə yaxındır anti-islam, anti-türk ovqatının körüklənməsində katalizator rolunda çıxış edir. Afrikada və Orta Şərqdə müsəlman ölkələrində Fransanın törətdiyi insanlıqdan uzaq əməlləri tarix unutmayıb.

"Şarle-Hebdo''da müsəlmanların heysiyyətinin təhqir edilməsi bunu təsdiqləyir. Fransa ASALA, PKK kimi terror təşkilatlarının bazasına çevrilib.

Makron da ermənilərin yalanını dəstəkləyərək Qarabağda Azərbaycan tərəfdən guya Suriyadan gətirilən terrorçuların döyüşdüyünü iddia edib. Emmanuel Makron və onun kimi düşünənlər, bu yalanı tirajlayan dövlət rəsmiləri Azərbaycan əhalisinin öz torpaqlarının azad etmək üçün keçirdikləri hissi, göstərdikləri əməli fəaliyyəti görmür. On minlərlə gənc könüllü döyüşə gedib, torpaqları işğaldan azad etmək üçün hərbi komissarlıqlara müraciət edir.

Odur ki, Makronun və onun kimi düşünən dövlət rəsmilərinin əlində bir fakt belə olsaydı onu indi çoxdan əlaltıları olan KİV vasitəsilə yaymışdı. Əllərində fakt olmadığından bu yolla Fransa prezidenti Azərbaycanı şantaj yolunu tutub.

Makronun sülhsevərlik damarı yalnız ermənilərə çatanda atır. Əlcəzairdə Fransanın törətdiyi soyqırımını Emmanuel Makron nə tez unudub? Fransa kimi demokratik bir dövlətin başçısının bu sayaq xristian təəssübkeşliyi, habelə siyasi ambisiyasını gerçəkləşdirmək üçün ermənilərdən istifadə etməsi çox gülünc görünür.

Nəhayət, Fransa ATƏT-in Minsk qrupunun 3 həmsədr dövlətindən biridir. Münaqişənin həlli ilə bağlı bu ölkə tərəfsiz mövqedən çıxış etməlidir. Ancaq əfsuslar olsun ki, Emmanuel Makronun çıxışları, Ermənistanı və erməniliyi müdafiə etməsi Fransanın daşıdığı missiyaya ziddir. Qarabağ məsələsində Fransa vasitəçi deyil, işğalçının tərəfkeşi rolunda çıxış edir.

***Report.az***

# News.Ru: Yerevan siyasi-diplomatik və hərbi dalanda: Rusiyalı ekspertlərin fikirləri -

*Rusiyalı analitik və hərbi ekspertlər hesab edir ki, Ermənistan ordusu cəbhədə, Yerevanın propoqandist fəndləri isə beynəlxalq arenada müvəffəqiyyətsizliyə uğrayıb*



News.Ru xəbər saytında Qarabağ ətrafında baş verən proseslərlə bağlı maraqlı analitik yazı dərc olunub. İşğal altında olan Qarabağda düşdüyü böhrandan çıxmaq və mövqelərin itirilməsini dayandırmaq üçün Ermənistanın əlində çox az imkanlar qaldığını qeyd edən yazıda qeyd olunur ki, Paşinyanın kömək üçün xarici dövlətlərə etdiyi müraciətləri də nəticə verməyib. Nəticədə Yerevan həm hərbi, həm siyasi cəhətdən "tupikə" dirənib. Saytın analitiki İqor Nikiforov Azərbaycan-Ermənistan cəbhəsində yaranmış hərbi, siyasi, diplomatik situasiyanı təhlil edərkən bu qənaətə gəlib.

Qeyd olunur ki, döyüşlər başlanandan Paşinyan böyük dövlətlərin liderlərinə aramsız zənglər edib, lakin bu, heç bir effekt verməyib. Bütün dövlətlər, o cümlədən Rusiya qarışmamağı üstün tutub.

Müəllif vurğulayır ki, beynəlxalq dəstəkdən məhrum olması, Qarabağ cəbhəsində mövqelərin fasiləsiz itirilməsi fonunda Ermənistan qəribə fəndlərə əl atıb.

Misal üçün, cəbhə bölgəsində Azərbaycan aviasiyasının vurulması, qarşı tərəfdən xarici döyüşçülərin iştirak etdiyi, mülki əhaliyə qarşı bombardman haqda dezinformasiyalar buraxır. Halbuki, bunların heç birini sübut edəcək, dəlil, fakt, sənəd təqdim edə bilmir. Necə ki, qəzaya uğrayan Ermənistan hərbi təyyarəsinin Türkiyə təyyarəsi tərəfindən vurulması haqda yalan xəbəri sübut edə bilmədi. Heç bir dövlətin peyk çəkilişlərində belə bir fakt qeydə alınmayıb.

İqor Nikiforovun qənatəinə görə, Türkiyə dronlarının istifadəsi ilə bağlı Yerevanın iddiası da gülüncdür. Çünki Azərbaycan ən çoxu Rusiyadan olmaqla bir çox ölkələrdən, o cümlədən də Türkiyədən rəsmi şəkildə müxtəlif silah və texnika alıb və bunları da qanuni olaraq döyüşlərdə istifadə edir. Türkiyənin guya müharibədə iştirakı haqda da saxta xəbərlər yayan Ermənistan rəhbərliyi bu barədə heç bir fakt qoya bilmir.

Analitik yazır ki, Ermənistan tərəfinin təkziblərinə baxmayaraq, cəbhə bölgəsində olan xarici jurnalistlər və açıqlanmış rəsmi məlumatlar da təsdiq edir ki, Azərbaycan Ordusu çox mükəmməl əks-hücum kampaniyası aparır və davamlı olaraq işğal edilmiş ərazilərini, yaşayış məntəqələrini azad edir, strateji nöqtələri ələ alır.

Müəllif qeyd edir ki, tərəflərin informasiyalarının obyektivliyi də fərqlidir. Belə ki, Azərbaycan tərəfi vurduğunu elan etdiyi bütün hərbi obyekləri və texnikanın videokadrlarını nümayş etdirir, Ermənistan tərəfi isə bəyan etdiklərinin heç birini sübut edə bilmir.

Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Kiril Semyonov isə hesab edir ki, Ermənistan hakimiyyəti özünün müharibəyə xarici müdaxilə haqda əsəbi bəyanatlarında məğlubiyyətə uğrayıb, çünki bu haqda heç bir fakt yoxdur.

Ekspert deyr ki, erməni tərəfini özünün təklənmədiyini göstərmk üçün digər ölkələrə də problem yaradır. Belə ki, erməni mediası İranın onlara hərbi yardım etməsi haqda saxta xəbərlər buraxandan sonra İran XİN-in rəsmi nümayəndəsi bunu təkzib etdi və bəyan etdiyi ki, İran öz ərazisindən hərbi yüklərin keçirilməsinə imkan vermir.

Hərbi ekspert Yuri Lyamin təsdiq edir ki, erməni mediasının İran vasitəsilə Ermənistana hərbi yüklərin gətirilməsini siyasi və hərbi dəstək kimi göstərməsi absurddur: "Şahidlər və fotofaktlar göstərir ki, bu maşınlar və texnikalar "Qafqaz-2020" hərbi təlimlərinə gətirilmiş və təlim başa çatdıqdan sonra Gümrüdəki 102 nömrəli Rusiya hərbi bazasına geri qaytarılan maşınlardır və bunun Ermənistan Ordusuna heç bir aidiyyatı yoxdur".

Yuri Lyamin Paşinyanın çox mürəkkəb vəziyyətə düşdüyünü vurğulayıb. Onun fikrincə, bu səbəbdən müxtəlif proqoqandist fəndlərlə Rusiya-Türkiyə və Azərbaycan-İran münasibətlərində gərginlik yaratmaq üçün hər yola əl atır, lakin bu, effekt vermir.

Belə situsiyada Yerevanın əlində danışıqlar masasına qayıtmaqdan başqa heç bir variant qalmayıb. Xüsusilə də, daxili böhranın getdikcə kəskinləşdiyi bir vaxtda. Sülh danışıqları isə yalnız Azərbaycanın işğal olunmuş 20 faiz ərazisindən hərbi birləşmələrin tamamilə çıxdığı halda baş tuta bilər.

***Elçin Bayramlı***

# Qorxun, el qınağı yaman olur...

***"Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır". Bu yerində deyilmiş sözdür. Bu gün özünü "müxalifətçi" adlandıranlar eyni yalanı danışmaqdan, Azərbaycana qənim kəsilməkdən yorulmadılar. Umacaqları nədir, hakimiyyət?! Bu bədbəxtlər niyə reallığı anlamırlar, bu gün ölkə etibarlı əllərdədir, xalqının arxasında dayanan LİDERİ var.***

Bu yerdə 1995-ci il martın 19-da Ulu Öndər Heydər Əliyevin müxalifətlə bağlı dediyi fikirləri xatırlatmaq istərdim. Ulu Öndər deyirdi: "...Özlərini guya müxalifət hesab edərək cinayətlə məşğul olanlar müxalifət deyillər. Müxalifət siyasi müxalifət olmalıdır, amma onlar cinayətkarlardır. Əgər bu gün soruşsaq ki - kimdir tökülən qanların günahkarları?- deyə bilərik ki, onlardır və onlardır".

Bəli, bu gün Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatının şanlı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırılması siyasi baxışlarından asılı olmayaraq hər bir Azərbaycanlını çox sevindirdi. Ermənilərin xeyli sayda canlı qüvvə və hərbi texnika itirərək qorxu içində geri çəkilməsi və işğal altında olan mövqelərin Silahlı Qüvvələrimizin nəzarəti altına keçməsi ordumuzun mühüm qələbəsidir.

Ordumuz tərəfindən əldə edilmiş bütün bu uğurlar Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında davamlı inkişaf edən, maddi-texniki bazası daim gücləndirilən Azərbaycan Silahlı Qüvvələrinin, rəşadətli əsgərlərimizin və Azərbaycan xalqının tarixi nailiyyətidir.

Lakin Azərbaycanın uğurlarını həzm edə bilməyən xarici və daxili bədxahlarımız, o cümlədən bu gün özlərini xalqın, millətin "yanında olduqlarını" göstərməyə çalışan Müsavat və AXCP-nin siyasi hoqqabazlığını, satqınlığını Azərbaycan xalqı artıq 27 ildir görür. Və Vətənimizin bu ağır günündə, torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün Şanlı Ordumuzun uğurlu əkshücum əməliyyatlarına siyasi partiyaların birlik nümayiş etdirdiyi halda hansı haqla bu düzgün, haqq yolundan uzaq olurlar. Bu yerdə belə bir ifadə var: "Elə bu çirkab və satqın viruslar bu siyasi partiyalar içində olmasalar daha yaxşıdır".

Ancaq həyasızlığın son həddinə bax, bu antimilli ünsürlər sosial şəbəkələrdən Azərbaycan xalqı adından, Vətənimiz, torpağımız haqqında danışırlar. Vətən müharibəsinə etinasız qalan, Azərbaycan xalqının son 30 ildir səbirsizliklə gözlədiyi Vətən müharibəsinin başlamasının ilk günündən qələbələrə 50 siyasi partiyaların birgə bəyanatına Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyalarının imza atmamaqla bir daha xalq düşməni olduqlarını açıq-aydın nümayiş etdirdilər. Belə olan halda xalqın, Vətənin adından danışmağı sizək im haqq verib? Bu bəyanatda Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı pislənilir. Ən əsası isə bu bəyanat Azərbaycanda xalqla hökumətin, eyni zamanda Azərbaycanda yaşanan siyasi partiyaların birliyinin təcəssümüdür. Siyasi partiyaların rəhbərləri öz birgə bəyanatında Ermənistanın işğalçı siyasətini şiddətlə qınayır. Mülki əhalinin yaşadığı kəndlərin bombalanması faktı insanlığa qarşı edilən cinayət kimi beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsini tələb edirlər. AXCP-Müsavat isə bu dəfə də kənarda qalmamaqla, bir daha cinayətkar, satqın olduqlarını sübuta yetirir. Çünki Qarabağ torpaqlarının düşmənə verilməsinin günahkarlarıdır.

## Prezident İlham Əliyev: "Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı



## Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır"

Bunu tarixi faktlar da sübut edir. Və bu gün Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası milli həmrəylik nümayiş etdirə bilməyərək, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsinə sevinməyərək, düşmən dəyirmanına su tökdülər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə aktlara əsaslanaraq bildirib ki, "Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır. Məhz onların dövründə torpaqlarımız işğal altına düşüb. Onların xəyanətkar, yarıtmaz fəaliyyəti nəticəsində biz bu torpaqları itirmişik. Mən həmişə deyirdim ki, biz müvəqqəti itirmişik, biz bu torpaqlara qayıtmalıyıq. Şuşanın satılması sırf o vaxt hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində baş vermişdir. Kəlbəcərin, Laçının işğal altına düşməsi Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin birbaşa məsuliyyətidir. Məhz bu işğaldan sonra demək olar ki, növbəti işğal da qaçılmaz oldu. Çünki Laçının, Kəlbəcərin, Şuşanın işğal altına düşməsi Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Belə olan halda əlbəttə ki, o bölgələrə, Dağlıq Qarabağa silah təchizatı, ondan sonra digər maddi resursların təchizatı asanlaşmışdır. Bu gün biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Müsavat Partiyasının yarıtmaz əməllərini, bu ləkəni Azərbaycanın üstündən silirik. Bu gün biz öz torpaqlarımızı bərpa edirik. 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Bu gün - 2020-ci ildə, artıq bir daha qeyd etmək istəyirəm ki, bir neçə yaşayış məntəqəmiz işğalçılardan azad edildi, bir neçə strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır".

## "Vətən üçün pis olan, mənə faydalıdır"

Bəli, radikal müxalifətin "düşüncəsi" belədir. Çünki bu 27 il ərzində radikal müxalifət xalq tərəfindən dəstəklənməyib və bu gün də dəstəklənmir. Çünki bu günə kimi də onları narahat edən mövcud xalq-hakimiyyət birliyidir. Prezidentimiz də hər hansı beynəlxalq siyasi dairələrin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirir. Bu, xalq-hakimiyyət birliyini güclü edən həlledici amildir. Eyni zamanda, bu, monolitliyin xarici bədxahlarımızın və "sapı özümüzdən olan baltalar"ın hədəfinə çevrilməsini şərtləndirən mühüm səbəbdir. Qoy antimilli ünsürlər və onların xarici havadarları unutmasınlar ki, onların siyasi hoqqabazlıqları həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa məhkumdur. Azərbaycana qarşı olan, erməniləri dəstəkləyən və "siyasi mühacirət" adı ilə Avropanın zibilxanalarında eşələnən Vidadi İsgəndərli, Sevinc Osmanqızı, keçmiş səfir Arif Məmmədov, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacbəyli, Arif Hacılı...bu kimi satqınlar yenə də öz kimliklərin bu qədər xalqına, dövlətinə dəyərsiz yanaşmaq olmaları onların əsl elə simalarını göstərir.

İndiki məqamda Azərbaycanın haqq və ədalətli mövqeyi şəxsi ambisiyalardan imtina etməyi və milli maraqlar naminə vahid qüvvə kimi çıxış etməyi tələb edir. Tarixi ədalət və haqq uğrunda aparılan müharibədə xalq iqtidar və müxalifət cəbhələrini bölünməz edir. Təəssüf ki, Müsavat Partiyası və AXCP bunlarda çox-çox uzaqdır. Və bu gün sosial şəbəkələrdə gecə-gündüz vətənpərvərlikdən, Vətən amilindən söz açmağa mənəvi haqqınız çatırmı? Həyasızlıq, bəli həyasızlıq, özü də 100 faiz həyasızlıq buna deyilir.

Şərəf var, ləyaqət var, qeyrət var. Vətən var, ölkə var, Azərbaycan var. Vəhşi, terrorçunu müdafiə edən satqının Vətən amilindən söz açmağa haqqı yoxdur. Və çəkilin siyasi səhnədən! Qorxun, el qınağı yaman olur...

***Rəfiqə HÜSEYNOVA***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# İT KİMİ...

***Hələ Qarabağ münaqişəsi yenicə başlayan zaman baş vermiş bir hadisə yadıma düşdü. Əslində, bəhs etdiyim bu hadisə, ya da mövzu bəlkə də çoxlarının başına gəlib. Amma buna baxmayaraq, düşündüm ki, bir daha xatırladım.***

Bir erməni qonşumuz var idi, Andrey və arvadı Roza. Onlar normal çalışır, işləyir, həyatlarını davam etdirir, həm də mehriban qonşuluq prinsiplərinə riayət edirdilər. Get-gəl, filan... Ara-sıra məhəllənin qadınları yığılıb söhbət edərkən, həmin Roza deyirmiş ki, işlədiyi yerdə digər erməni - Rita adlı bir qadın hər maaşda ondan filan qədər pul alırmış, hətta deyirmiş ki, həmin vəsait guya Azərbaycanda yaşayan ermənilərin problemlərinin həll olunmasına xərclənir, pul verənlərin adları qeyd olunur və s. Amma bir gün həmin Rita Rozaya onu da deyibmiş ki, vaxtı çatanda vəsaitlərin digər harayasa xərcləndiyini öyrənəcək. Bax beləcə, bir çoxları hələ də azərbaycanlılara xas olan saflığa sahib olduqları üçün, sözügedən məsələnin nəyə xidmət etdiyini ya anlamırdılar, ya da...

Və bir gün Qarabağın Ermənistana birləşdirilməsi məsələsi üzə çıxarkən, Roza və Andrey başılovlu halda qapımızı döydülər, ağlayaraq-sızlayaraq buradan heç hara köçmək istəmədiklərini bildirdilər. Lakin sonrakı proseslər, yəni 200 min azərbaycanlıların Qərbi Azərbaycandan zorla qovulmaları, talan və qarət edilmələri, öldürülmələrinin ardınca hər şey heç də Roza ilə Andrey cütlüyünün istədiyi kimi getmədi. Bax onda Roza iki əlini birdən başına çırparaq "vayyy!" deyə qiyyə çəkdi, dalınca da erməni dilində yuxarıda bəhs etdiyim Ritanın gəlib-keçəninə söydü. Andrey isə dedi ki, biz heç yerə gedəsi deyilik, qoy bizi öldürsünlər, assınlar, kəssinlər, it kimi (!) bağlanacağıq qapımıza. Amma belə olmadı, vaxtı gəldi və iki erməni ər-arvad evlərini Qərbi Azərbaycandan didərgin düşmüş ailəylə dəyişərək, İrəvana köçdülər.

İndi Andreylə Rozanın həmin o "it" məsələsi lap yerinə düşdü. Ali Baş Komandanımız cənab İlham Əliyev Qarabağın erməni işğalından azad olunması prosesinin uğurlu, qələbəyə doğru sürətlə inkişaf edən gedişatı, xalqa müraciəti zamanı təcavüzkarların torpaqlarımızdan it kimi qaçmalarını açıq fikirlə etiraf etməsi çoxlarımızın ürəyindəki tikanları çıxarmış oldu. Prezidentimiz xalqın dilində danışdı, xalqın dilində bəyanat səsləndirdi və xalqın yağı, mənfur, xain düşmənə olan münasibətini nümayiş etdirdi. Bu gün milli heysiyyatımız, qürurumuz heç vaxt olmadığı qədər zirvədədir, işğaldan azad olunmuş ərazilərimizdə yenidən ucaldılmış üçrəngli, müqəddəs bayrağımız kimi!

Başqa tərəfdən, Ali Baş Komandanımız bir daha vurğuladı ki, işğal altından azad olunan ərazilərimizdə yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Onların bütün hüquqları qorunacaq və Azərbaycan vətəndaşı olaraq öz hüquqlarından tam şəkildə istifadə edəcəklər.

Ancaq məni düşündürən yenə də Andreylə Rozadır. Görəsən sağdırlarmı? Bəlkə son vaxtlara - Azərbaycanın işğalçı rejimin təxribatçılıq əməllərinə qarşı başlatdığı zəfər yürüşünə qədər Şuşada, Xankəndidə, Cəbrayılda və s. məskənlərimizdə məskunlaşıblar sonradan? Axı işğalçı rejim Qarabağ əhalisinin sayının çoxaldılması üçün Livandan, Suriyadan erməniləri köçürməyə başlatmışdı. İrəvanda və başqa şəhərlərdən Qarabağa köçənlərə isə ev, pul və s. öhdəliklər vəd edirdi. Yəqin Andrey və Roza da aclarından ölməmək üçün məcburən Qarabağa gediblərmiş, bəlkə də...

Görünür, indi də orada suriyalı, livanlı erməni qonşularına deyirlərmiş ki, it kimi bağlanacaqlar evlərinin qapılarına və heç yerə gedəsi deyillər və s.

Amma sonda bir məsələni də xatırlatmaq istərdim. İndi mənə çatır ki, demə bu da bir erməni bicliyi imiş - başqasını güdaza verməklə, özünü təmizə çıxarmaq. Axı biz azərbaycanlılar erməni xislətində deyilik, safıq, təmizik, inanırıq və ürəyimizin dərinliyindəki mərhəmət hissi sonsuzdur. Yəni 30 ildən sonra mənə indi bəlli olmağa başlayır ki, demə Roza da, əri Andrey də maaşının bir qədərinin haraya köçürüldüyünün fərqində imiş, sadəcə, özünü bilməməzliyə vururmuş, hər şeyi Bakıda birgə çalışdığı iş yoldaşı Ritanın üzərinə atması ilə...

# Azərbaycan-Ermənistan cəbhəsində tərəflərin imkanları

*Müharibədə arxa cəbhənin və iqtisadi-maliyyə imkanlarının rolu nədən ibarətdir?*

Azərbaycanın öz işğal olunmuş ərazilərində gedən anti-terror əməliyyatları diqqəti ön planaqaynar döyüş əməliyyatlarına yönəltsə də, bu müharibənin arxasında görünməyən cəbhənin əhəmiyyəti heç də ön cəbhədən az deyil. İstənilən müharibədə öz cəbhənin arxasında güclü arxa cəbhə dayanır. Bu cəhətdən 2 ölkə müqayisə olunmayacaq dərəcədə fərqlidir.

### Müasir texnologiyalara malik ordu daha güclüdür

Məlum olduğu kimi, müharibənin, ordunun arxasında güclü iqtisadiyyat, ciddi maliyyə resursları dayanmalıdır. Bunların olmadığı, yəni zəif olduğu halda ordunu təmin etmək, müharibəni davam etdirmək mümkün olmur. Napaleon demişkən, müharibə, ilk növbədə pul deməkdir. Müasir dövrdə orduların hərbi-texniki arsenalı yeni və effektiv silah və texnikalara malik olmalıdır ki, bunun üçün də təbii ki, ciddi maliyyə vəsaitləri tələb olunur.

Hər silahın, texnikanın da konkret istifadə müddəti var, o müddət bitəndə yenisini almalısan, yenisi üçün də vəsait olmayanda həmin silah və texnika artıq adi dəmir yığınından başqa bir ey olmur.

Üstəlik, ən müasir texnologiyaların müharibədə rolu əvəzsizdir. Buraya güclü aviasiya, zərbə dronları, radioelektron mübarizə vasitələri, radar sistemlərini, yüksəkdəqiqlikli artilleriya və reaktiv yaylım atəş sistemləri və s daxildir.

Bunun əyani nümunəsini Qarabağ cəbhəsində hamı gördü. Azərbaycanın yüksək effektivli, müasir və güclü hərbi texnologiyaları döyüşlərdə əzici üstünlük nümayiş etdirdi. Ermənistan isə, köhnə, zəif, vaxt keçmiş texnikaları ilə heç nə edə bilmədi. Hətta, yaşayış məntəqələrimizə atdığı orta mənzilli raketlər belə ya partlamadı, ya da havada vuruldu.

1 həftədə Azərbaycan Ordusu düşmənin 1000-dən artıq texnikasını- tankları, topları, reaktiv sistemləri, radar qurğularını, hərbi döyüş maşınlarını və s. dəqiqliklə vuraraq sıradan çıxardı. Bu Ermənistan arsenalının əhəmiyyətli bir hissəsidir. Qarabağdakı hərbi dislokasiyanın ixtiyarında olan texnikanın isə demək olar ki, çox böyük əksəriyyətidir.

Nəzərə alsaq ki, ordumuz ən güclü silahlarını, orta mənzilli raketlərini və düşməninkindən 3 qat çox olan aviasiyasnı hələ heç işə salmayıb, artıq hər şey aydın olur. 2 ölkənin hər qarışını nəzarətdə saxlayan kosmik peyklər haqda isə heç danışmağa dəyməz. Azərbaycan bu imkana malikdir, Ermənstan isə yox.

### Müharibəni təkcə ordu, dövlət yox, bütün xalq aparır

Müharibələrdə təkcə dövlət, ordu yox bütün xalq, bütün iqtisadi infrastruktur iştirak edir. Bu günkü müharibədə də təkcə ordumuz yox, bütün xalqımız iştirak edir. Hamı ödədiyi vergilərlə, işlədiyi işlə, verdiyi əməklə, istehsal etdiyi əmtəə ilə ordumuzun arsenalını müasir və güclü silah texnika ilə doldurub. Bu isə artıq çox böyük maliyyə vəsaiti deməkdir ki, bu xərcin öhdəsindən əksər dövlətlər gələ bilmir.

Bundan başqa, informasiya müharibəsində milyonlarla azərbaycanlı gecə-gündüz döyüşür, erməni dezinformasiyalarına və əkstəbliğatına qarşı mübarizə aparırlar. Kibermüharibədə isə müqayisəlunmaz üstünlük var. İTK mütəxəssis qruplarımız düşmənin strateji elektron resurslarını sıradan çıxarıb və rabitə vasitələrini böyük ölçüdə bloklayıb.

Buraya siyasi və diplomatik cəbhədə döyüşənləri də əlavə etsək mənzərə tamamlanar. Bir sözlə bütün cəbhələrdə müqayusəolunmaz üstünlük bizim tərəfimizdədir, çünki Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, haqq da, ədalət də, beynəlxalq hüquq da, vicdanlı dünya ictimaiyyəti də bizim tərəfimizdədir.

### Mövcud iqtisadi imkanların müharibəyə davamlılıq fərqi




Azərbaycanın iqtisadi inkişaf tempinin uzun illərdir dünyada ən yüksək göstəricilərdən biri olması faktdır. Ölkənin Ermənistanınkından 25 dəfə çox olan nəhəng strateji maliyyə rezervləri, 5 dəfə çox olan dövlət büdcəsi, 6 dəfə çox olan ümumdaxili məhsul səviyyəsi, dəfələrlə aşağı olan xarici borcu, xarici ticarətdə, rəqib ölkənin mənfi saldosuna qarşı müsbət saldosu, 4 dəfə çox olan hərbi büdcəsi, 5 dəfə çox olan insan resursu və s faktorlar hər şeyi aydın göstərir.

Ermənistan isə bütün sahələrdə ciddi böhran keçirir, həm də çox uzun illərdir. Ölkə faktiki olaraq defolt vəziyyətdədir. Statistik göstəricilərə nəzər salmaq kifayətdir ki, bu vəziyyəti aydın görəsən. Müvafiq olaraq, sosial böhran şiddətlənir.

Bu günlərdə Ermənistan parlamenti 2020-ci ilin büdcə layihəsinin icrası vəziyyətini müzakirə edib. Müzakirələrdə ilin yekununa büdcədə defisit həcminin artacağı qeyd edilib. Parlamentin rəsmi saytı xəbər verir ki, iclasda büdcədə defisitin səviyyəsi ÜDM-in 7,4 faizə çatması nəzərdə tutulub. Cari ilin büdcəsində, ilin sonunda dövlət borcları 12,6 milyardlıq ümumdaxili məhsulun 67 faizinə çatacaq ki, erməni ekspertlərin fikrincə, bu, dünyada ən pis göstəricidir və iqtisadi böhranın xeyli dərinləşdiyini göstərir.

Ermənistan Nazirlər Kabineti ümumdaxili məhsulun daha 644,2 milyon dollar azalacağını gözləyir. ÜDM-in 6,8 faiz azalması, dövlət borcunun kəskin artması, mənfi tədiyyə balansının yüksəlməsi nəticəsində iqtisadi böhranın güclənməsini hökumət pandemiya ilə bağlamağa çalışsa da, müstəqil istisadçılar burada əsas səbəbin pandemiya olmadığını, iqtisadi geriləmənin uzun illərdir davam etdiyini qeyd edirlər.

Bu faktlar ölkənin borcla yaşadığını və defolta doğru getdiyini aydın göstərir. Bu səbəbdən, ölkədə sosial vəziyyətin getdikcə ağırlaşması parlamentdə bir çox deputatların sərt etiraz çıxışlarına səbəb olub. Deputatlar belə bir zəif iqtisadi güclə Qarabağda Ermənistan ordu korpusunun saxlanmasının və Azərbaycan ordusunun azadetmə əməliyyatlarına cavab verəcək imkanların olmadığını bildirərək qeyd ediblər ki, dövlət hərbi əməliyyatların 1 ay belə davam etməsini təmin edəcək resurslara malik deyil. Bu vəziyyətdə, orduya, müharibəyə dəstək vermək imkanlarından söhbət belə gedə bilməz.

### İşğal olunmuş ərazilərin azad olunması prosesi necə gedir?

İlk günlər prosesin bir qədər yavaş getməsi tətbiq edilən hərbi strategiya, ən çətin relyef şəraiti və ön xətdəki güclü müdafiə sistemi ilə bağlı idi. Hərbi komandanlıq canlı qüvvə itkisinə yol verməmək üçün, ilk günlərdə piyada hissələrin hücumuna o qədər də üstünlük vermədi. Artilleriyanın, pilotsuz uçan aparatların dəqiq zərbələri ilə düşmənin texniki vasitələrinin çox böyük əksəriyyəti sıradan çıxarıldı. İndi quru qoşunlarının işğal altında olan yaşayış məntəqlərimizi terrorçulardan azad etməsi üçün qarşısındakı ciddi təhlükə mənbələri minimuma endirilib.

İlk həftədə 30 illik müdafiə sistemləri bütün cəbhə boyu yarıldı. Bundan sonra ordunun irəliləyişi sürətli keçəcək. Bu səbəbdən Qarabağın azad edilməsinin oktyabrı keçməyəcəyi heç kimdə şübhə doğurmur.

Qaldı ki əsgərlərin ruh yüksəkliyinə, peşəkarlıq səviyyəsinə, mənəvi psixoloji vəziyyətinə bu haqda müqayisə aparmağa belə dəyməz. Ordumuzun əsgərləri bunu döyüş meydanında cəmi bir neçə günə sübut etdilər. Azərbaycanda milyonlarla insan cəbhəyə can atdığı halda, Ermənistanda və Qarabağdakı erməni ordu korpusunda hamı döyüşdən qaçmağa çalışır, bir çox hallarda döyüşsüz təslim olurlar.

Müharibənin davamı üçün külli miqdarda sursat, texnika tələb olunur. Bizdə müvafiq sənaye var, Ermənistanda isə yoxdur.

Yeri gəlmişkən, beynəlxalq ekspertlərin hesablamalarına görə, Ermənistan bütün imkanlarını tam səfərbər etsə belə, maksimum 1 ay müharibəyə davam gətirə bilər.

Azərbaycanda isə bu müddət illərlə ölçülür. Təkcə strateji rezervlər 50 milyarddır. Daxili fondları və digər ehtiyatları da nəzərə alsaq, bu sahədə ağlagəlməz üstünlük olduğunu görərəik.

### Müharubədən sonrakı bərpa işləri: hansı imkanlar var?

Ümumiyyətlə, hesab edirik ki, Qarabağın bərpası üçün sürətli proqramla cəmi 2 il kifayət edər. Bunun üçün maliyyə bazası da var- 50 milyardlıq strateji rezervlər və daxili imkanlar. Əlavə olaraq, xarici və yerli investotrları da buraya cəlb etmək mümkündür.

Ərazilər azad olunduqca, tikinti-quraşdırma işləri geniş vüst alacaq. Burada xeyli yeni iş yerləri yaranacaq. İlk 1 ildə azı yarım milyon nəfər köçkünü yenidən məskunlaşdırmaq mümkündür. Daha sonra növbəti yarım milyonu.

Qarabağda aqrar sektorun, həmçinin yüngül və yeyinti sənayesinin inkişafı üçün potensial imkanlar var. Turizmin inkişafı üçün isə bu bölgə dünyada ən ideal yerlərdən biridir.Bir neçə il ərzində burada böyük bir iqtisadi baza formalaşacaq.

Məcburi köçkünlərin öz torpaqlarına qayıtması nəticəsində Bakının və iri şəhərlərin yükü də xeyli azalacaq. Boşalan yüz minlərlə mənzil sosial ev fonduna yönəldiləcək. Nəticədə yüz minlərlə vətəndaşımız uzunmüddətli kreditlə, asanlıqla və çox ucuz qiymətə mənzil ala biləcək.

Bu qələbədən sonra ölkəmizin həll edəsi böyük problemi qalmayacaq, xırda problemlər də 1-2 ilə həllini tapacaq. Müharibədən sonra Azərbaycan yeni inkişaf dövrünə qədəm qoyacaq. İndiyədək hərbi xərclərə və Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün on milyardlarla vəsait xərclənirdi. İndi bu vəsaitlərin çoxu iqtisadi və sosial inkişafa qoyulacaq. Azərbaycan qısa müddətdə inkişaf etmiş, müsir ölkəyə çevriləcək.

**Elçin Bayramlı**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

6 oktyabr

## Romelu Lukaku Avropa Liqasında ötən mövsümün ən yaxşı futbolçusu seçilib




UEFA Avropa Liqasında 2019-2020-ci il mövsümünün ən yaxşı futbolçusu müəyyənləşib. AZƏRTAC UEFA-nın saytına istinadla xəbər verir ki, İtaliyanın "İnter" futbol klubunun hücumçusu Romelu Lukaku ötən mövsümün ən yaxşısı seçilib. O, digər namizədlər Bruno Fernandeş ("Mançester Yunayted") və Ever Baneqanı ("Sevilya") qabaqlayıb. Qeyd edək ki, 27 yaşlı hücumçu 2019-2020-ci il mövsümündə turnirin pley-off mərhələsindəki 6 oyunda 7 qol vurub, 2 qolun ötürməsini verib.

## "Qarabağ hər zaman Azərbaycanın ayrılmaz hissəsi olub və olacaq"



***Vətənimdə bir neçə gündür qanlı toqquşmalar davam edir. Ermənistanın işğalçı qoşunları əzəli torpaqlarımızda xalqımıza qarşı vuruşur. Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyirəm. Erməni işğalçı qüvvələri torpaqlarımızı dərhal tərk etməlidir. Bu, mövcud vəziyyətin həlli üçün yeganə çıxış yoludur.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın dünya şöhrətli şahmatçısı Teymur Rəcəbov "Facebook" səhifəsindəki paylaşımında qeyd edib. O bildirib ki, ordumuzun şücaətli əsgərləri düşmənlə mübarizə aparır, doğma torpaqlarımızda ədaləti bərpa edirlər. T.Rəcəbov paylaşımını "Qarabağ Azərbaycandır! Qarabağ hər zaman Azərbaycanın ayrılmaz hissəsi olub və olacaq!" sözləri ilə bitirib.

## Ət yeməkdən tam imtina etmək düzgün deyil

***Hər kəs hər gün olmasa da, həftə ərzində bir və ya bir neçə dəfə ət və ya ət məhsullarından istifadə edir. Milli mətbəximizin tanınmış qidaları arasında ətsiz xörək tapmaq çətindir.***

Son dövrlərdə ət və ya ət məhsullarından könüllü olaraq imtina edənlərin də sayı artıb. Hazırda vegetarian və ya veqan olmaq bir növ dəbə minib. Vegetarian dedikdə ət məhsullarından imtina edib öz rasionunda bitki mənşəli qidalara üstünlük verənlər nəzərdə tutulur.



Azərbaycan Tibb Universitetinin qidalanma və kommunal gigiyena kafedrasının müdiri İbrahim Əhmədovun dediyinə görə, vegetarianlıq inkişaf edən orqanizm üçün, daha dəqiq desək, uşaqlar və gənclər üçün əlverişli deyil: "Çünki onlarda böyümə və inkişaf, bədənin formalaşması prosesi gedir. Müəyyən patologiyalar zamanı ondan tam imtinadan yox, bəzi qidaların məhdudlaşdırılmasından, pəhriz qidalanmasından istifadə etmək daha düzgündür. Əgər kiminsə ateresklerozu, yaxud arterial hipertoniyası varsa, onun ət və ət məmulatlarından çox istifadə etməsi düzgün deyil. Ət yeyilməsi vacibdir, çünki onun orqanizmin immunitetinin formalaşmasında, parçalanan, məhv olan hüceyrələrin yerini doldurmaqda onun böyük əhəmiyyəti var. Ət və ət məmulatlarından birdəfəlik imtina etmək düzgün deyil, çünki onun tərkibində olan maddələr bitki mənşəli məhsullarda yoxdur və ya çox cüzidir. Xüsusilə onların tərkibində olan amin turşuları orqanizmi zülallarla təmin edir".

Lakin bununla birlikdə qidalanma zamanı meyvə, tərəvəz və ağartı məhsullarından istifadə etmək tövsiyə olunur.

## Zidanın oğlu "Rayo Valekano"da

"Real"dan ayrılan Luka Zidanın yeni klubu müəyyənləşib. Qol.az xəbər verir ki, fransalı qolkiper "Rayo Valekano"ya keçib. Klubun rəsmi saytı 22 yaşlı qapıçı ilə 2 illik müqavilə imzalandığını açıqlayıb.

Qeyd edək ki, "Real"ın baş məşqçisi Zinəddin Zidanın oğlu olan qapıçı ötən mövsüm Madrid klubunun gənclərdən ibarət komandasında 33 oyuna çıxıb və 44 qol buraxıb.




## Azərbaycanda həkimlərin 65,9 faizi qadınlardır

Ötən ilin sonuna olan məlumata əsasən, Azərbaycanda həkimlərin ümumi sayı 31 min 829 nəfərdir.



Əhalinin hər 10 min nəfərinə orta hesabla 32 həkim düşür. AZƏRTAC xəbər verir ki, bu məlumatlar Dövlət Statistika Komitəsinin "Azərbaycanda qadınlar və kişilər" statistik məcmuəsində əks olunub. Məlumata görə, həkimlərin 65,9 faizi (20 min 980 nəfər) qadın, 34,1 faizi (10 min 849 nəfər) kişilərdir.

## Ötən il rəsmi nikaha daxil olan qadınların orta yaşı 24,7, kişilərin isə 29,4 olub

Ötən il Azərbaycanda 63 min 869 nikah qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4 təşkil edib. Rəsmi orqanlar tərəfindən qeydə alınmış nikaha daxil olan qadınların orta yaşı 24,7, kişilərin isə 29,4 olub. Birinci nikaha daxil olanların orta yaşı qadınlar arasında 24, kişilər arasında 28,1 təşkil edib.



AZƏRTAC xəbər verir ki, bu məlumatlar Dövlət Statistika Komitəsinin "Azərbaycanda qadınlar və kişilər" statistik məcmuəsində əks olunub. Məlumata görə, ötən il 18 yaşadək 366 gəlinin və 1 bəyin rəsmi nikahları qeydə alınıb.

## Avtomobil oğurlayan şəxs tutulub

Nəsimi rayonunda avtomobil oğurlayan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 20-ci polis bölməsinə müraciət edən Bakı şəhər sakini O.Abbaslı sentyabrın 30-da rayon ərazisindən "Hyundai" markalı avtomobilinin qaçırıldığını bildirib.



Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Sumqayıt şəhər sakini A.İbrahimov həmin gün polis əməkdaşları tərəfindən Sumqayıt şəhəri ərazisində avtomobillə birgə saxlanılıb. Faktla bağlı təhqiqat davam etdirilir.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600